## Makron: "Fransa Avropada müharibəyə hazırlaşmalıdır"



**"Fransa yüksək intensivlikli müharibəyə hazır olmalıdır".**

"Report" "Liberation" nəşrinə istinadən xəbər verir ki, bunu Fransa Prezidenti Emmanuel Makron deyib.

Onun sözlərinə görə, Fransa kosmosda və kibernəkanda yeni növ münaqişələr qarşısında çevik olmalıdır. Fransa lideri silahlı qüvvələrdə ehtiyatda olan əsgərlərin, polis və jandarma qüvvələrinin sayının iki dəfə artırıldığını açıqlayıb. Makron bununla yanaşı, seçki kampaniyası zamanı Fransanın 2025-ci il müdafiə büdcəsinin 50 milyard avro olacağını bildirib. Hazırda bu rəqəm 40 milyard avrodan çoxdur.

## Fransa Ukraynaya 300 milyon avro maliyyə yardımı göndərəcək



**Fransa yaxın günlərdə Ukraynaya 300 milyon avro məbləğində maliyyə yardımı göndərmək niyyətindədir.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə Fransa Xarici İşlər Nazirliyinin nümayəndəsi bildirib.

Nümayəndə qeyd edib ki, əlavə maliyyə yardımının ayrılması xarici işlər naziri Le Drian ilə ukraynalı həmkarı Dmitri Kuleba arasında söhbət zamanı müzakirə olunub.


№ 50 (5572), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 18 mart 2022-ci il (cümə)


## Açılış alov şousu ilə başlayacaq

İçərişəhərdə Novruz bayramı tədbiri keçiriləcək



**Martın 19-da İçərişəhər ərazisində təntənəli Novruz bayramı tədbirləri keçiriləcək.**

Bu barədə "Şərq"ə İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən məlumat verilib.

*Qeyd olunub ki, açılış saat 17.00-da canlı musiqilər, alov şousu ilə başlayacaq: "Saat 19:30-da ənənəvi bayram tonqalı qalanacaq. Daha sonra bayram şənliyi yallı rəqsi, canlı musiqi nömrələri ilə davam edəcək".*



## "İdman hər bir ölkənin qüdrətini əks etdirir"

İlham Əliyev: "Bir çox yerlərdə istedadlı uşaqlar var, sadəcə, onları düzgün seçmək və idmana cəlb etmək lazımdır"

**"Biz müharibəni ləyaqətlə aparmışıq, mülki əhaliyə qarşı vuruşmamışıq.** Bunu Prezident İlham Əliyev Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edərkən deyib. Dövlət başçısı bildirib ki, biz binaları bombalamamışıq, qəddarlıqla məşğul olmamışıq, bütün müharibə qanunlarına riayət edərək aparmışıq. Halbuki, xalqımızın ürəyində qisas hissi həmişə var idi...

(səh.2)

## Liderlər Ukraynadakı vəziyyəti müzakirə ediblər



**Rusiya prezidenti Vladimir Putin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla telefon danışığı aparıb. Bu barədə RİA Novosti Kremlin mətbuat xidmətinə uistinadən xəbər verib.**

"Donbasın müdafiəsi üçün xüsusi hərbi əməliyyatın keçirilməsi ilə bağlı vəziyyətin inkişafının müxtəlif aspektləri müzakirə edilib. Vladimir Putin həmçinin danışıqların gedişi barədə Rusiya və Ukrayna nümayəndələrini məlumatlandırıb", - deyə məlumatda bildirilir. Ərdoğan isə öz növbəsində Rusiya və Ukrayna arasında danışıqların müsbət nəticələnəcəyinə ümid etdiyini bildirib. Bunu isə Türkiyə liderinin mətbuat xidmətindən bildiriblər. Onun sözlərinə görə, əgər daimi atəşkəs elan olunarsa, o zaman uzunmüddətli nizamlanmaya yol açılacaq. Bundan əlavə, Ərdoğan Rusiya və Ukrayna prezidentlərini Ankara və ya İstanbulda qəbul etməyə hazır olduğunu bir daha təsdiqləyib.

# Zelenski ilə Putin yaxın həftələrdə görüşə bilər

Çavuşoğlu: "Atəşkəs məsələsində ümidimiz bir az daha artıb"



Ukrayna Prezident Ofisi: "Razılaşma üzərində işlərin başa çatması gözlənilir"

**Ukraynanın xarici işlər naziri Dmitri Kuleba və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Lvovda görüşüb.**

XİN başçıları Ukrayna ətrafındakı vəziyyəti müzakirə ediblər.

"Atəşkəs məsələsində ümidimiz bir az daha artıb".

Bu barədə Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu ukraynalı həmkarı Dmitri Kubela ilə görüşü zamanı deyib.

O bir daha bildirib ki, Türkiyə Rusiya-Ukrayna liderlərinin görüşünə ev sahibliyi etməyə hazırdır və bu istiqamətdə Rusiya lideri Vladimir Putinlə təmaslar davam edir.

XİN başçısı qeyd edib ki, Rusiya ilə Ukrayna arasında razılıq əldə olunarsa, iki lider görüşmək ehtimalı var.

Nazir bildirib ki, görüşün vaxtını Rusiya və Ukrayna prezidentləri müəyyənləşdirməlidir.

Ukrayna və Rusiya prezidentləri Volodimir Zelenski ilə Vladimir Putin arasında görüş yaxın həftələrdə baş tuta bilər.

(səh.3)

# Artıq İrəvanda sülh səsləri eşidilir

Ermənistanın yekun sülh sənədinə imza atmaqdan başqa yolu qalmayıb




**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasından danışıb.** XİN rəsmisi bildirib ki, Bakı və İrəvanın sülh sazişi ilə əlaqədar işə başlaması hazırlığı Kreml tərəfindən alqışlanır. Zaxarova ölkəsinin sülh danışıqları prosesinə hərtərəfli köməklik göstərmək niyyətini bir daha təsdiqləyib: "O ki qaldı sülh sazişinin nə vaxt imzalanacağına, bu mövzudan nəsə danışmaq hələ tezdir. Biz Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına kömək etməyə hazırıq. Əlbəttə ki, tərəflər özləri aralarındakı bütün məsələləri həll edəcəklər.

(səh.3)




## Avropa Şurası Belarusla əməkdaşlığı dayandırıb

**Avropa Şurası Nazirlər Komitəsi Rusiyanın Ukraynadakı hərbi əməliyyatında oynadığı rola görə Belarus hakimiyyəti ilə əməkdaşlığı dayandırıb.**

TASS əbər verir ki, bu barədə təşkilatın mətbuat xidməti məlumat yayıb.

"Təşkilat Belarusun bütün iclas və tədbirlərdə iştirak hüquqlarını dayandırır. Bu, Belarusun Avropa Şurasının, o cümlədən Venesiya Komissiyasının qismən razılaşmalarında iştirakına da aiddir", - məlumatda deyilir.

Eyni zamanda, Avropa Şurası Nazirlər Komitəsi Minsklə istənilən texniki əməkdaşlığı dayandırmaq niyyətindədir.

## Yoluxma sayı kəskin azaldı

Daha 99 nəfər koronavirusa yoluxub, 8 nəfər ölüb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 99 yeni yoluxma faktı qeydə alınıb, 315 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən xəbərə görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 791 176 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 780 302 nəfər müalicə olunaraq sağalıb, 9 641 nəfər vəfat edib, aktiv xəstə sayı 1 233 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 5 677, ötən müddət ərzində isə ümumilikdə 6 651 787 test aparılıb.*

## İntihara cəhd edən şəxs xilas edildi



**Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə daxil olan məlumata əsasən, Abşeron rayonunun Mehdiabad qəsəbəsində 1 nəfər yeddimərtəbəli yaşayış binasının damına çıxaraq intihar etmək istəyini nümayiş etdirib.**

Fövqəladə Hallar Nazirliyi xəbər verir ki, FHN-nin Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri dərhal hadisə yerinə cəlb olunub. Vətəndaşla aparılan psixoloji söhbətlər nəticəsində o, özünə qəsd etmək fikrindən daşınıb.



## "Hələ Ukraynada sülhdən danışmaq çox tezdir"

Ərəstun Oruclu: "Şimal qonşumuz məqsədlərinə nail olmaq üçün sonadək gedəcəyini vurğulayıb"

(səh.4)

## Kremlin yeni "SSRİ" arzusu gorbagor oldu

Ukrayna Rusiya mifini hər sahədə dağıtmaqla məşğuldur



(səh.5)



# "İdman hər bir ölkənin qüdrətini əks etdirir"

## İlham Əliyev: "Bir çox yerlərdə istedadlı uşaqlar var, sadəcə, onları düzgün seçmək və idmana cəlb etmək lazımdır"

**"Biz müharibəni ləyaqətlə aparmışıq, mülki əhaliyə qarşı vuruşmamışıq. Bunu Prezident İlham Əliyev Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edərkən deyib. Dövlət başçısı bildirib ki, biz binaları bombalamamışıq, qədDarlıqla məşğul olmamışıq, bütün müharibə qanunlarına riayət edərək aparmışıq. Halbuki, xalqımızın ürəyində qisas hissi həmişə var idi:**

"Çünki ermənilər tərəfindən bizə qarşı soyqırımı törədilib. Bizə qarşı etnik təmizləmə siyasəti aparılıb, qisas hissi mütləq olmalı idi. Ancaq mən demişdim ki, düşməndən intiqamı döyüş meydanında alacağıq. Bütün dünya, bütün hərbi ekspertlər artıq bunu dəfələrlə qeyd ediblər ki, Azərbaycan bu müharibəni həm böyük məharətlə, ustalıqla aparıb, qısa müddət ərzində istədiyinə nail olub, həm də bütün müharibə qanunlarına riayət edərək ləyaqətlə aparıb. Məhz buna görə düşmən tərəfində mülki əhali arasında itkilər 30-dan da az idi. O da məhz ona görə ki, o mülki vətəndaşlar döyüşlərdə iştirak edirdilər. Mən bunu xüsusilə qeyd etmək istəyirəm. Çünki indi dünyada bir çox yerlərdə müharibələr gedib, gedir və əfsuslar olsun ki, gedəcək. Bu gedən müharibələrə diqqət yetirsək, hesab edirəm ki, həm Azərbaycan xalqı, həm bütün dünya ictimaiyyəti bir daha Azərbaycan xalqının böyüklüyünü və Azərbaycan rəhbərliyinin məsuliyyətini görür.

Əlbəttə ki, azad edilmiş torpaqlarda idman inkişaf etməlidir. Biz indidən bu işlərlə məşğul oluruq. Stadionlar, idman kompleksləri və digər idman qurğuları şəhərlərin, azad edilmiş bütün şəhərlərin baş planlarında da öz əksini tapır. İndidən federasiyalar, Gənclər və İdman Nazirliyi artıq layihələri təqdim etməlidir. Çünki şəhərlərin baş planlarında idman qurğularının yerləşməsi nəzərdə tutulur. Amma bunlar hansı formada olacaq, memarlığı necə olacaq, bunu artıq müvafiq federasiyalar, Gənclər və İdman Nazirliyi təqdim etməlidir".

**"İdman sahəsində əldə edilmiş uğurlar vətənpərvərlik hisslərini daha da gücləndirirdi"**

**Prezident bildirib ki, idman sahəsində əldə edilmiş uğurlar, bayrağımızın qaldırılması, himnimizin səsləndirilməsi vətənpərvərlik hisslərini daha da gücləndirdi:** "Biz müstəqil ölkə kimi böyük idman yarışlarına qatılanda torpaqları işğal edilmiş ölkə kimi çıxış edirdik. Sübut etməli idik və sübut edirdik ki, bizim gücümüz də var, iradəmiz də var və beynəlxalq idman arenalarında göstərdiyimiz məharət, güc özünü döyüş meydanında da göstərəcək. Hər halda, xalqımızın və gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman amili çox böyük rol oynayır. Mən bunu bilərək çalışırdım ki, gənclərdə vətənpərvərlik hissləri daim yüksək olsun. Məhz bu vətənpərvərlik hissləri, Vətənə olan sevgi, bağlılıq Vətən müharibəsində əsas rol oynadı. Bizim əlbəttə ki, güclü Ordumuz, texnikamız, silahlarımız, sursatlarımız var. Amma Qələbəmizi şərtləndirən döyüşçülərin əzmkarlığı, Vətənə olan bağlılığı idi. Bu da vətənpərvərlikdən irəli gəlir.

**"Bir çox yerlərdə istedadlı uşaqlar var"**

**Ölkə rəhbəri qeyd edib ki, bir çox yerlərdə istedadlı uşaqlar var, sadəcə olaraq onları düzgün seçmək və idmana cəlb etmək lazımdır:** "Ölkəmizdə keçirilmiş və bundan sonra keçiriləcək idman yarışları da müntəzəm xarakter almalıdır. Çünki ölkəmizin həm imkanları, həm Azərbaycanda qonaqpərvərlik, idman infrastrukturunun mövcudluğu sayəsində biz bütün istənilən idman yarışını keçirə bilərik. Məsələn, Avropa Oyunlarında 5 mindən çox idmançı iştirak edirdi və onların bir çoxu qeyd edirdi ki, bu Oyunlar Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilir. Yəni, bütün bu şəraiti biz yaratmışıq ki, həm idmançılar dövlətimizin şöhrətini həmişə yüksəkliklərdə saxlasınlar, həm də idman kütləvi xarakter alsın. Gənclər və idman naziri qarşısında, yeni rəhbərlik qarşısında qoyduğum vəzifələrdən biri də məhz budur - idmanın kütləviliyini təmin etmək və bütün bölgələrdə mövcud infrastrukturdan istifadə etmək. Çünki bizdə hər bir bölgədə müasir olimpiya idman kompleksləri vardır, 50-yə yaxın belə bir kompleks artıq inşa edilib və onlardan səmərəli şəkildə istifadə etməliyik. Seleksiya işi çox düzgün aparılmalıdır. Bölgələrdə, bir çox yerlərdə istedadlı uşaqlar var, sadəcə olaraq onları düzgün seçmək və idmana, idman bölmələrinə cəlb etmək lazımdır".

**"İdman bizim dövlət siyasətimizdir"**

**Prezident vurğulayıb ki, idman bizim dövlət siyasətimizdir:** "İdmançılarımız uzun illərdir Azərbaycanı dünyada təbliğ edirlər. Mən dəfələrlə idman ictimaiyyəti ilə görüşlər əsnasında deyirdim ki, idman bizim dövlət siyasətimizdir və idman hər bir ölkənin qüdrətini əks etdirir. Çünki əgər beynəlxalq yarışlarda, Olimpiya Oyunlarında ölkələrin reytinqlərinə nəzər salsaq görərik ki, adətən inkişaf etmiş ölkələrin nümayəndələri daha da böyük uğurlar qazanırlar. Bu da təbiidir, çünki həm təlim-məşq toplanışlarının keçirilməsi, ümumiyyətlə, hazırlıq işlərinin qurulması, iqtisadi baza - bütün bu amillər önəmli rol oynayır. Əlbəttə ki, dövlət siyasəti burada aparıcı məsələdir və Azərbaycan bu ölkələrin sırasındadır. Biz nəinki iqtisadi və digər sahələrdə, idman sahəsində də qabaqcıl ölkələrin sırasındayıq və bu liderliyi qoruyuruq. Təsadüfi deyil ki, beynəlxalq idman qurumları Azərbaycana çox böyük rəğbətlə yanaşırlar. Belə olmasaydı, Azərbaycanda iki dünya səviyyəli tədbir keçirilməzdi - həm Avropa Oyunları, həm də İslam Həmrəyliyi Oyunları. Bir ölkədə, bir şəhərdə cəmi iki il ərzində iki böyük tədbirin keçirilməsi beynəlxalq idman ictimaiyyətinin, federasiyalarının bizə olan münasibətinin əlamətidir".

**"İdmançılara şərait yaratmalıyıq, onlardan isə nəticə gözləməliyik"**

**Prezident bəyan edib ki, idmançılara şərait yaratmalıyıq, onlardan isə nəticə gözləməliyik:**

"Son vaxtlar Güləş Federasiyasında gedən proseslər narahatlıq doğurdu və durğunluq hiss olunurdu. Güləş Federasiyasında idarəetmə mexanizmi zəifləmişdi, faktiki olaraq özbaşınalıq hökm sürürdü. Əlbəttə ki, bu, nəticələrə də mənfi təsir göstərib və bu, təbiidir. Ona görə Güləş Federasiyasının rəhbərliyinin dəyişdirilməsi zəruri idi, bu, baş verdi. Əminəm ki, federasiya indi həm buraxılmış bütün nöqsanları aradan qaldıracaq, vəziyyəti təhlil edəcək, - mənə məlumat verilib ki, artıq bu işlərə start verilib, - əlbəttə ki, idmançılara - həm gənclər, həm də böyüklər arasında çıxış edən idmançılara lazımi şərait yaradacaqdır. Mən Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçiləndən qarşıya məhz bu vəzifəni qoydum ki, biz idmançılara şərait yaratmalıyıq, onlardan isə nəticə gözləməliyik. Bax, bu iki əsas amil bizim böyük uğurlarımızın əsasını təşkil edirdi. Ona görə əminəm ki, Güləş Federasiyası Gənclər və İdman Nazirliyi ilə, məşqçilərlə birlikdə düzgün addımların atılmasına nail olacaq və bugünkü qələbəni mən görülən bu işlərin ilk təzahürlərindən biri kimi qəbul edirəm".

**İsmayıl**

# Dialoqun üçüncü raundu baş tutdu

## Bakıda Azərbaycan və Aİ arasında növbəti təhlükəsizlik dialoqu keçirilib



**Bakıda Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında təhlükəsizlik dialoqunun üçüncü raundu keçirilib.**

Bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter" səhifəsində paylaşım edib.

"Mən Avropa Xarici Fəaliyyət Xidmətinin Baş katibinin müavini Enrike Moraya regional məsələlər, enerji/kiber təhlükəsizlik, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qanunsuz miqrasiya və s. mövzulara dair məhsuldar fikir mübadiləsinə görə minnətdaram", - Hikmət Hacıyev qeyd edib.

# MEDİA və ADA Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb





**Dünən Medianın İnkişafı Agentliyi və ADA Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.**

MEDİA-dan "Şərq"ə verilən xəbərə görə, sənədin imzalanmasında məqsəd ADA Universiteti və MEDİA Agentliyi arasında müştərək layihələrin reallaşdırılması istiqamətində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin qurulması, elmi-praktiki tədbirlərin həyata keçirilməsi, tələbələrin təcrübi biliklərinin artırılması, habelə media sahəsində mütəxəssislərin hazırlanması və onların əlavə təhsilinin təşkil edilməsidir.

Sənədi Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov və ADA Universitetinin prorektoru Fariz İsmayılzadə imzalayıblar.

Memoranduma əsasən, tədris ili ərzində istehsalat təcrübəsinin və yay təcrübə proqramlarının keçirilməsi, bununla yanaşı təhsil sahəsində müasir texnologiyaların və elmi inkişafın istifadəsində qarşılıqlı əlaqələndirmənin təmin edilməsi nəzərdə tutulub.



# Rusiya alqışlayır

## Azərbaycanla Ermənistan sülh sazişinin tərtib edilməsinə başlayıb

**Rusiya Azərbaycanla Ermənistanın sülh sazişinin tərtib olunmasına başlamağa hazır olmalarını alqışlayır.**

Trend-in məlumatına görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova brifinq zamanı deyib.

"Biz danışıqlar prosesinə hərtərəfli yardım göstərməyə hazır olduğumuzu təsdiq edirik. Sülh sazişinin tamamlanması və imzalanması müddətlərinə gəldikdə, hesab edirəm ki, bu barədə danışmaq hələ tezdir", - M.Zaxarova deyib.



# Ermənistanın Azərbaycanda casusları çoxdur"

## DTX onlardan birini zərərsizləşdirib

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən davam etdirilən kompleks əks-kəşfiyyat tədbirləri çərçivəsində düşmənlə əməkdaşlıq edən şəxs saxlanılıb.**

Bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsi məlumat yayıb. Məlumata əsasən, başlanılmış cinayət işi üzrə Azərbaycan vətəndaşı, 1981-ci il təvəllüdlü Məmmədov Emil Ramiz oğlu dövlətə xəyanət etməkdə şübhəli bilinib.

O, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə məsuliyyətə cəlb olunaraq məhkəmənin qərarına əsasən həbs edilib. Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Deputat Aqil Abbas mövzu ilə bağlı "Şərq"ə bildirib ki, aprel döyüşlərindən sonra belə hallar intensiv xarakter alıb:**

"Ermənilərin burda casusları var. Onlar vaxtaşırı müəyyən məlumatları düşmən tərəfə ötürürlər. İndi DTX onlardan birini saxlayıb. Amma yəqin ki, sayları çoxdur".

*A.Abbas diqqətə çatdırıb ki, DTX bu istiqamətdə yeni əməliyyatlar həyata keçirəcək:*

"Belə satqınların, casusların varlığı ölkəmiz üçün təhlükəlidir. Ona görə anoloji əməliyyatların sayı artırılmalıdır. Odur ki, bu sahədə hələ çox işlər görüləcək".

**Günəş Mərd**

# Zelenski ilə Putin yaxın həftələrdə görüşə bilər

## Çavuşoğlu: "Atəşkəs məsələsində ümidimiz bir az daha artıb"



**Ukraynanın xarici işlər naziri Dmitri Kuleba və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Lvovda görüşüb.**

XİN başçıları Ukrayna ətrafındakı vəziyyəti müzakirə ediblər.

"Atəşkəs məsələsində ümidimiz bir az daha artıb".

Bu barədə Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu ukraynalı həmkarı Dmitri Kuleba ilə görüşü zamanı deyib.

O bir daha bildirib ki, Türkiyə Rusiya-Ukrayna liderlərinin görüşünə ev sahibliyi etməyə hazırdır və bu istiqamətdə Rusiya lideri Vladimir Putinlə təmaslar davam edir. (apa)

XİN başçısı qeyd edib ki, Rusiya ilə Ukrayna arasında razılıq əldə olunarsa, iki liderin görüşmək ehtimalı var.

Nazir bildirib ki, görüşün vaxtını Rusiya və Ukrayna prezidentləri müəyyənləşdirməlidir.

Ukrayna və Rusiya prezidentləri Volodimir Zelenski ilə Vladimir Putin arasında görüş yaxın həftələrdə baş tuta bilər.

Bunu da Ukrayna Prezident Ofisinin rəhbəri Mixaylo Podolyak deyib.

"Zelenski ilə Putinin görüşü razılaşma üzərində işlərin başa çatmasından sonra, yaxın həftələrdə baş tuta bilər", - o bildirib.

Podolyak, həmçinin əlavə edib ki, Rusiya ilə Ukrayna arasında sülh sazişinin razılaşdırılması bir neçə gündən bir həftə yarımadək vaxtı əhatə edə bilər.



# Kürdə suyun səviyyəsi artıb

## Son günlər yağan intensiv yağışlar da suyun səviyyəsinin artmasına səbəb olur

**Kür çayının Salyan rayonundan keçən hissəsində suyun səviyyəsi artıb.**

Bu barədə "Report"un Muğan bürosuna rayon sakinləri məlumat verib.

Sakinlər bildiriblər ki, onlar bir müddət əvvəl Kürün rayon ərazisindən keçən hissəsində çayın suyunun tamamilə quruduğunun şahidi olublar: "Kürün Salyan rayonu ərazisindən keçən hissəsində çayın suyu tamamilə qurumuşdu. Çayın quruması isə rayon ərazisində su böhranı yaratmışdı. Martın 16-dan başlayaraq çayın qurumuş hissəsində suyun səviyyəsi qalxaraq 20-25 santimetrə qədər artıb".

Sakinlər suyun artmasını müxtəlif amillərlə izah ediblər. Kürün Salyan hissəsində suyun səviyyəsinin artması ilə bağlı məsələyə Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Rafiq Verdiyev aydınlıq gətirib.

Rəis müavini "Report"un yeri bürosuna bildirib ki, Kürün sözügedən hissəsində suyun səviyyəsinin qalxmasının əsas səbəbi Mingəçevir su anbarıdır:

"Düzdür son günlər ölkə ərazisində yağan intensiv yağışlar da suyun səviyyəsinin artmasına səbəb olur. Lakin həmin ərazidə suyun səviyyəsinin qalxması, anbardan buraxılan suyun həcminin 95 kubmetr/saniyəyə çatdırılmasıdır".

# 7 deputat istərəm...

## Məzahir Pənahov: "Qarşıda duran əsas proses seçici siyahılarının dəqiqləşdirilməsidir"



**Dünən Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. İclasda 6-cı çağırış Milli Məclisin deputatı Şahin Seyidzadənin mandatına xitam verilməsi, bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi və başqa cari məsələlərə baxılıb.**

**Mərkəzi Seçki Komissiyasının dünən keçirilən iclasında MSK sədri Məzahir Pənahov deyib ki, hazırda qarşıdakı əsas proses seçici siyahılarının dəqiqləşdirilməsidir:** "Məntəqələr üzrə seçici siyahıları dəqiqləşdirilib dairə seçki komissiyaları tərəfindən MSK-ya təqdim ediləcək. Seçki Məcəlləsinin tələbinə görə, biz may ayına qədər seçici siyahılarının dəqiqləşdirilməsini tam başa çatdırmalıyıq. Komissiya üzvləri də bu və ya digər imkanlardan istifadə edərək bu işdə iştirak etsin. Qarşıda duran əsas proses seçici siyahılarının dəqiqləşdirilməsidir".

**Milli Məclisdə boş deputat yerlərinin sayı 7-yə çatıb**

**Mərkəzi Seçki Komissiyanın iclasında Şahin Seyidzadənin "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilməsi ilə bağlı deputat mandatına xitam verilib.** Bununla da parlamentdə boş qalan deputat yerlərinin sayı 7-yə çatıb. Qeyd edək ki, 2020-ci ilin fevral ayında keçirilən Milli Məclisə növbədənkənar seçkilər zamanı Mərkəzi Seçki Komissiyası baş vermiş qanun pozuntularına görə 4 dairənin nəticələrini ləğv edib. Həmçinin 2 il öncə Milli Məclisə 116 saylı Qəbələ seçki dairəsindən seçilən deputatı Fəttah Heydərov vəfat edib. Daha sonra Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hökmünə əsasən, Eldəniz Səlimov 3 il 6 ay müddətinə azadlıqdan məhrum olunub. E.Səlimovun da deputat mandatına xitam verilib.

**Bir sıra DSK-ların tərkibində dəyişiklik edilib**

Mərkəzi Seçki Komissiyasının qərarına əsasən, bir sıra dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib. MSK katibi Arifə Muxtarova deyib ki, 6 saylı Culfa-Babək dairə seçki komissiyasına bitərəf Həşimova Rahilənin namizədliyini irəli sürür. MSK sədrinin müavini Rövzət Qasımov nəzərə çatdırıb ki, 67 saylı Cəlilabad dairə seçki komissiyasının üzvlərindən Mirsahib Sultanov MSK-ya müraciət edərək səhhəti ilə bağlı komissiyanın üzvlüyündən azad olunmağı xahiş edib. 90 saylı Ağdaş seçki dairəsinin həlledici səs hüquqlu üzvü Təbriz Ədilov da komissiya üzvlüyündən azad olunmasını xahiş edib. Milli Məclisdə deputatları çoxluq təşkil edən komissiya üzvləri tərəfindən 67 saylı Cəlilabad seçki dairəsinə İsa Allahverdiyevin namizədliyi irəli sürülüb. MSK katibi Mikayıl Rəhimov qeyd edib ki, 11 saylı Qaradağ seçki dairəsinin həlledici səs hüquqlu üzvü, 70 saylı Lənkəran şəhər seçki dairəsinin həlledici səs hüquqlu üzvü və digər 2 dairə seçki komissiyasının üzvü dünyasını dəyişib. 121 saylı Şuşa-Ağdam-Xocalı dairə seçki komissiyasının üzvü də başqa işə keçməsi ilə əlaqədar komissiya üzvlüyündən azad olunmağı xahiş edib. Bir neçə dairə seçki komissiya üzvü də başqa işə keçməklə bağlı komissiya üzvlüyündən azad olunmağı xahiş ediblər. Məsələ səsverməyə çıxarılaraq qəbul edilib.

**İsmayıl**




# Artıq İrəvanda sülh səsləri eşidilir

## Ermənistanın yekun sülh sənədinə imza atmaqdan başqa yolu qalmayıb

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasından danışıb.** XİN rəsmisi bildirib ki, Bakı və İrəvanın sülh sazişi ilə əlaqədar işə başlaması hazırlığı Kreml tərəfindən alqışlanır. Zaxarova ölkəsinin sülh danışıqları prosesinə hərtərəfli köməklik göstərmək niyyətini bir daha təsdiqləyib: "O ki qaldı sülh sazişinin nə vaxt imzalanacağına, bu mövzudan nəsə danışmaq hələ tezdir. Biz Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına kömək etməyə hazırıq. Əlbəttə ki, tərəflər özləri aralarındakı bütün məsələləri həll edəcəklər. Bizim tərəfimizdən Azərbaycan və Ermənistana hər yardım və kömək göstəriləcək".

**Zaxarovanın açıqlamasını "Şərq"ə dəyərləndirən siyasi şərhçi Azər Niftiyev deyib ki, Rusiya post-sovet məkanında baş verən bütün münaqişələrə, o cümlədən Qarabağ məsələsinə ikili standartlardan yanaşır.** Ekspert vurğulayıb ki, Moskva regional münaqişə ocaqlarından, gərgin situasiyalardan bölgə ölkələrinə təzyiq vasitəsi kimi istifadə edir: "Hansısa dövlətlə Kreml arasında balaca soyuqluq yaranan kimi digər ölkəni təhrik edir ki, qarşı tərəfin əleyhinə müəyyən addımlar atsın. Bunu dəfələrlə təcrübə etmişik. Torpaqlarımıza təcavüz edilməsində və 30 ilə yaxın işğalda saxlanmasında Rusiyanın "xidmətləri" danılmaz reallıqdır. 30 il ərzində Kreml Azərbaycan-Ermənistan arasındakı problemin həllinə çalışmadı. Heç buna səy də göstərmədi. Əksinə, müxtəlif dövrlərdə himayə etdikləri Ermənistanı "cəsarətləndirərək" Azərbaycana qarşı təxribatlara çəkdilər. Zaxarovanın bəyanatı açıqlama xatirinə deyilmiş ənənəvi sözlərdir. Hazırda Moskvanın başı Ukraynanın işğalına və üzləşdiyi təzyiqlərə qarışıb. Rusiyaya qarşı tarixdə görünməmiş maliyyə sanksiyaları tətbiq olunmaqdadır. Bu ölkə faktiki olaraq dünyanın iqtisadi sistemindən təcrid edilir. Ekspertlərin yekdil qənaəti odur ki, qarşıda Rusiyanı daha ağır sosial fəlakət gözləyir. Belə məqamda qonşuların problemi Moskva üçün arxa plana keçir. Ancaq arasıra Xarici işlər naziri Sergey Lavrovun və ya Zaxarovanın diliylə müxtəlif bəyanatlar verərək bölgədə hələ də təsir imkanlarının qaldığını, söz sahibi olduqlarını xatırlatmaq niyyəti güdürlər. Ancaq yenə deyirəm, Rusiyanı sülhə dəstək verən yox, əksinə, hər fürsətdə qarşı çıxan bir güc kimi görmək lazımdır".

**Analitik vurğulayıb ki, Bakı ilə İrəvan arasında problemlər gec-tez həllini tapmalıdır:** "Ermənistan özü də dərk edir ki, Azərbaycanla yekun sülh sənədinə imza atmaqdan başqa çıxış yolu yoxdur. Geriyə yox, irəliyə baxmaq lazımdır. Son günlər Ermənistan rəsmilərindən, ictimaiyyət nümayəndələrindən gələn bəzi açıqlamalar da göstərir ki, artıq İrəvan da sülhdən yana mövqe sərgiləməyə başlayıb".

**İsmayıl Qocayev**



# "Qarabağdakı sülhməramlıların təxminən 15 faizi Ukraynaya gedib"

## Ədalət Verdizadə: "Görünür, rusların şəxsi heyətində kadr çatışmazlığı yaranıb"

Son vaxtlar cəbhənin müxtəlif istiqamətlərində atəşkəs pozulur. Azərbaycan Ordusu düşmənə adekvat cavab verir. Eyni zamanda müxtəlif iddialar da ortaya atılır. Bəzilərinin fikrincə, Azərbaycan Ordusu növbəti anti-terror əməliyyatına hazırlaşır. Bir qrup ekspert isə bunu tamamilə istisna edir və proseslərin diplomatik yolla həll ediləcəyini düşünür.

Rusiyanın başının Ukrayna ilə müharibəyə qarışdığı bir vaxtda əslində bizim üçün unikal imkan yaranıb. Bəs bu imkandan necə yararlanmaq lazımdır?

Bu və digər suallar barədə hərbi ekspert Ədalət Verdiyevlə söhbətləşdik:

**- Son vaxtlar intensivləşən təxribatların arxasında nə dayanır?**

- Bu, bir az da Ukraynada baş verən proseslərlə bağlıdır. Ola bilsin, oradakı separatçıların fəaliyyəti Qarabağdakı terrorçuları da cəsarətləndirib. Azərbaycan tərəfi kifayət qədər təsirli və adekvat tədbirlər görür. Buna kimsənin şübhəsi olmamalıdır.

**- Növbəti anti-terror əməliyyatı gözlənilirmi?**

- Bunu heç vaxt istisna etmək olmaz. Biz mövcud problemləri daha az itkilərlə həll etməyə çalışırıq. Amma əsgərimiz daim hazırdır. Rusiyanın proseslərə münasibətinin necə olması o qədər də əhəmiyyətli deyil. Daha vacib odur ki, Qarabağdakı sülhməramlılar açıq şəkildə tərəf tuturlar. Biz bunu aydın görürük.

**- Potensial toqquşma tərəflər arasında əlaqələrin normallaşmasına necə təsir edər?**

- Azərbaycan Qarabağ separatçıları ilə Ermənistan hakimiyyəti arasında ziddiyyət yaratmağı bacarıb. Hazırda Ermənistanda Qarabağda baş verənlərə sərt reaksiya göstərən çox az rəsmi şəxs var. Bu mənada rəsmi İrəvan ehtimal edilən anti-terror əməliyyatından narahat deyil. Çünki iqtidar bütünlüklə Qarabağın gec-tez Azərbaycanın nəzarətində olacağını bilir.

"Rusiyanın proseslərə münasibətinin necə olması o qədər də əhəmiyyətli deyil. Daha vacib odur ki, Qarabağdakı sülhməramlılar açıq şəkildə tərəf tuturlar. Biz bunu aydın görürük"

**- Rusiya ilə Ukrayna arasındakı müharibənin regiona təsiri nədən ibarətdir?**

- Birbaşa təsiri elə də çox deyil. Lakin bu müharibə Azərbaycanın hərbi sənaye cəhətdən hər iki tərəfdən üstün olduğunu bir daha ortaya qoydu.

**- Belə məlumat var ki, sülhməramlılar Qarabağdan çıxarılaraq Ukraynaya aparılır. Sizcə, bu, nə qədər doğrudur?**

- Bəli, həqiqətdir. Amma bu, kütləvi kampaniya deyil. Sülhməramlı kontingentin təxminən 10-15 faizi Ukraynaya gedib. Görünür, rusların şəxsi heyətində kadr çatışmazlığı yaranıb.

**Kənan Novruzov**

# ABŞ kəşfiyyatı rusların itkilərini açıqladı

## Şahin Cəfərli: "Müharibənin 3 həftəsi bitmədən 4 generalın öldürülməsi də kifayət qədər yüksək rəqəmdir"



**ABŞ kəşfiyyatı Rusiyanın Ukraynadakı itkilərini açıqlayıb. Kəşfiyyatdan bildirilib ki, ən təmkinli hesablamalara görə, 20 gün ərzində Rusiya ordusunun 7 mindən çox hərbçisi öldürülüb. Yaralıların sayı 14-21 min arasındadır.**

Siyasi şərhçi Şahin Cəfərli izlədiyi videolar və öyrəndiyi məlumatlar əsasında Ukraynanın açıqladığı rəqəmlərin həqiqətə daha yaxın olduğunu düşünür: "Hesab edək ki, ABŞ-ın məlumatları daha səhihdir. Yenə də bu rəqəmlər Rusiyanın qısa müddət ərzində çox ağır itkilərə məruz qaldığını göstərir. Müharibənin 3 həftəsi bitmədən 4 generalın öldürülməsi də kifayət qədər yüksək rəqəmdir. Bəzi rusiyapərəst soydaşlarımız Rusiyanın hələ əsas qüvvələrini və silahlarını döyüşə daxil etmədiyini deyirlər. Belə deyil. Rusiyanın döyüş qabiliyyətli elit hərbi hissələrinin hamısı Ukraynaya yeridilib və bunların bir çoxu döyüşlərdə ciddi zərbələr alıb. Rusiya kütləvi qırğın silahları istisna olmaqla, bütün hərbi arsenalından istifadə edib və edir".

**İsmayıl**

# Çörək ətrafında "ticarət müharibəsi" də gözlənilir

## Nazim Bəydəmirli: "Ənənəvi şəkildə avqustda, yeni mövsümə qədər qiymətlər qalxacaq"

**Rusiya-Ukrayna münaqişəsi dünyada ərzaq qiymətlərində bahalaşmaya yol açıb.**



Azərbaycanın buğda idxal etdiyi ölkələr Rusiya, Qazaxıstan və Ukraynadır. Rusiya və Ukrayna birlikdə dünyada buğda ixracının 30 faizə yaxınını təmin edirlər. Tərəflər arasında müharibə hər iki ölkədən buğda ixracının azalmasına gətirib çıxarıb. Bu, bütün dünyada müzakirə olunur.

Məlum vəziyyətdən dolayı bəzi ekspertlər çörəyin qiymətinin 1 manata çatacağını iddia edirlər.

Bir neçə gün öncə Rusiyanın Baş naziri Mixail Mişustin iyunun 30-dək qonşu Avrasiya İqtisadi İttifaqı ölkələrinə ağ və xam şəkər ixracının, həmçinin buğda, çovdar, arpa və qarğıdalı ixracının qadağan edildiyini açıqlayıb.

İxracat qadağası uzun müddət davam edərsə, Azərbaycan da problemlə qarşılaşa bilər.

**Gözlənilən ərzaq bahalaşması ehtimalı ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Nazim Bəydəmirli bildirib ki, şimal qonşumuz keçən ildən un məmulatlarına məhdudiyyət qoyaraq aksiz vergisi tətbiq edib.** Bu da qiymətlərin bahalaşmasını zəruriləşdirib:

"Azərbaycan hökuməti un istehsalçılarına kompensasiya vermək adıyla milyonlarla dövlət vəsaitini səmərəsiz xərclədi. Əvvəllər hər tona 200 dollar subsidiya verirdi. Yetərsiz olduğunun qənaətində idik. Bazar iqtisadiyyatı tələblərinə uyğun respublikamızın başqa ölkələrdən taxıl alınmasını stimullaşdırılmağı təklif etmişdik. Son illər ərzində ölkəmiz taxıl, ərzaq buğdası və yem məhsulları ilə Rusiyadan asılılığını artırmaqda davam edir. Hazırda şimal qonşumuzdan alışımız 80 faizdən yuxarıdır. Təhlükəli durumdur, çünki Rusiya normal tərəfdaş deyil. Partnyorları ilə "ticarət müharibəsi" aparır. İndi isə Avrasiya İqtisadi İttifaqı və çətiri altındakı ölkələrə taxılın satışını qadağan edib, özündən asılı olan ölkələri daha da asılı vəziyyətə salmaq istəyir".

Ekspertin sözlərinə görə, dünya bazarında buğdanın qiyməti elə də yüksəlməyib: "Ənənəvi şəkildə avqustda, yeni mövsümə qədər qiymətlər qalxacaq. Azərbaycan hökuməti alternativ satıcılar tapmalı, sahibkarlara dəstək verməlidir. Problemin yaranmasına səbəb Azərbaycanın məmur sahibkarlığı, inhisarçılıqdır. Daxili bazarda bir neçə un istehsalçısı aşağı keyfiyyətli buğdanı Rusiyadan gətirib yenidən istehsal edərək monopoliya yaradıb. İqtisadiyyat Nazirliyinin borcu bazarda iştirakçıların sayını çoxaltmaq, Qazaxıstandan, həmçinin digər ölkələrdən tədarükü artırmaq, logistik imkanları tapmaqdır. Ukrayna əsas taxıl ixrac edən ölkələrdən biridir. İndi Rusiya Federasiyası orada soyqırımı həyata keçirir, dağıdır. Rusiyadan nə qədər uzaq dursaq, bir o qədər yaxşıdır".

**Aygün Tahir**

# Ankaranın müharibəni dayandırmağa gücü çatacaq

## Putin-Zelenski görüşü Ərdoğanın vasitəçiliyi ilə baş tutacaq

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Ukrayna dövlət başçısı Vladimir Zelenski arasında telefon danışığı olub. Söhbət zamanı tərəflər Ukrayna-Rusiya müharibəsində son hadisələri müzakirə ediblər.**

"Türkiyə Rusiyanın Ukraynaya təcavüz senarisinin doğurduğu fəlakətli mənzərədə elə nöqtədə dayanır ki, nə Moskva ilə konfrontasiya yaransın, nə də ki Kiyev üzərindən dəstək əlini çəksin"



R.T.Ərdoğan ukraynalı həmkarı ilə Rusiya Prezidenti Vladimir Putini bir araya gətirmək üçün səylərini davam etdirəcəyini söyləyib. O, Zelenskiyə ən qısa zamanda daimi atəşkəsə nail olmağı hədəflədiklərini və müharibənin davam etdirilməsinin heç kimə fayda vermədiyini deyib.

**Analitik Aqşin Kərimov liderlərin telefon görüşməsindən "Şərq"ə danışarkən bildirib ki, hazırda V.Zelenski və V.Putin üçün ən etibarlı vasitəçi Türkiyə lideri R.T.Ərdoğandır:**

"Türkiyə Rusiyanın Ukraynaya təcavüz senarisinin doğurduğu fəlakətli mənzərədə elə nöqtədə dayanır ki, nə Moskva ilə konfrontasiya yaransın, nə də ki Kiyev üzərindən dəstək əlini çəksin. Bu gün Türkiyə ədalətə söykənərək Ukraynaya əhəmiyyətli dəstək verir. Zelenski özü dəfələrlə Ərdoğana təşəkkür edib. Bu, rəsmi Ankaranın qaynayan beynəlxalq nizamda hansı mühüm mövqedə olduğunun göstəricisidir".

**A.Kərimovun fikrincə, Türkiyə NATO üzvü olsa da, onu Rusiyaya yaxınlaşdıran xeyli əsaslı səbəblər var:**

"Hazırkı vəziyyətdə rəsmi Ankara NATO maraqlarını yox, ən çox özünün suverenlik və təhlükəsizlik prinsiplərini rəhbər tutur. Ərdoğan Putin üçün də, Zelenski üçün də böyük ümiddir. Görünən odur ki, elə Putin-Zelenski görüşü də Ərdoğanın vasitəçiliyi ilə baş tutacaq".

Siyasi şərhçinin qənaətincə, hazırda baş tutan görüşlər Türkiyə-Rusiya, Türkiyə-Ukrayna təmasları daha çox Ankaranın vasitəçilik təşəbbüsünün üstünlük qazanması deməkdir: "İndi Türkiyə haqlı olaraq və səmimi şəkildə müharibənin əleyhinə çıxış edir və tərəflərdən birini "qaza gətirmək" sevdasına düşmür".

**Günəş Mərd**

# Bakıda orijinal eksperiment baş tutdu

## Xalqımız dürüst və vicdanlıdır




Həyətinin yumurtasını küçədə nəzarətsiz satışa çıxardı, gözləntilər özünü doğrultdu

**Sosial mediada "Sadiq oglu" adlı feysbuk istifadəçisi çox maraqlı bir paylaşım edib. Onun diqqət yönəltdiyi məsələ istifadəçilərin böyük marağına səbəb olub. O, küçədən bir foto paylaşaraq yazıb:**

"Belə qərara gəldik ki, öz təsərrüfatımızda istehsal etdiyimiz yumurtaların satışını küçədə heç kim nəzarət etmədən həyata keçirək. Çoxları buna ironiya ilə yanaşdı. Ancaq biz heç də yanılmadıq. Doğrudan da, bizim millətimiz çox dürüst və bütün xalqlardan vicdanlıdır. Özünəxidmət formasında keçirilən satış özünü tam doğrultdu. Qutuda 84 manat 80 qəpik əvəzinə 85 AZN pul var idi. Satışımız bu üsulda da davam edəcək. Bir sözlə, Azərbaycan xalqına eşq olsun".

Qeyd edək ki, hadisə Sabunçu rayonunun Albalı yaşayış massivində yaşanıb.

Bu qeydlərdən sonra izləyicilər fərqli rəylər bildiriblər. Onlardan bir neçəsinə nəzər yetirək:

**Aftandil Mamedov:** "Bizdə sadə vətəndaşlar dürüstdür, yəni orta və kasıb təbəqənin gözü toxdur, təəssüf ki, məmur təbəqəsi oğrudur, qul haqqı yeyəndir" - deyə qeyd edib.

**Başqa bir şəxs - Səməd Mahmudoğlu** "bu mədəniyyətin və tərbiyənin ən təsirli metodudur" yazaraq fikirlərini şərh bölümündə diqqətə çatdırıb:

"Hələ 1974-76-cı illərdə Almaniyada hərbi xidmətdə olanda fermerin kəndin ortasına bitonlarda süd qoyub, getdiyinə şahidlik etdim. Sonra insanlar bir-bir gəlib, istədikləri qədər südü qablara doldurub, pulunu qoyublar. Sonra binanın blokuna yeşiklərlə şüşə butulkalarda qatıq qoyurdular. Mənzilindən çıxan adamlar qatıqdan götürüb, yerinə də pul qoyurdular. O vaxt almanların öz pulları olan "Marka"lar var idi".

**Digər istifadəçi Rövşən Şiralıyev:** "Bizim küçədə imkansız bir uşaq gül yeşiyi düzəldib, yanına da qutu qoyub. Qəbir üstünə gedənlər gülü götürüb, pulu qutuya atırlar. Bir neçə dəfə "xəyanətkar" ifşa olunub".

**Qiyas Məsimov isə yaxınlıqda neçə kamera var idi? - deyə yazıb:** "Kimdi 20 qəpiklik yumurtanı oğurlayıb, başına bəla açan?".

Həmin izləyicinin sualına cavab olaraq paylaşım sahibi satış yerində heç bir kamera yoxdur - deyə reaksiya verib.

Beləliklə, vətəndaşın paylaşımının rəylərindən aydın olur ki, hər kəs bu addımı bəyənib. Digər ölkələrdəki bunabənzər təşəbbüsü azərbaycanlıların öz nümayəndələrinə göstərməsi dəstəklənib.

**Azad İstehlakçılar Birliyinin sədri (AİB) Eyyub Hüseynov "Şərq"ə açıqlamasında bildirib ki, qida istehsalı, satışı, saxlanması, daşınması ilə məşğul olan hər bir şəxs Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyində reyestrə daxil olmalıdır:** "AQTA-nın mütəxəssisləri istehsalçının başlatdığı zənciri istehlakçıya çatdırılana kimi izləyir. Agentlikdə qeydiyyatı olduqdan sonra heç kəs ona müdaxilə edə bilməz. Malını rahat şəkildə sata bilər. İstehsalçıya sənəd də təqdim olunur. Əgər AQTA şəbəkəyə razılıq veribsə, onda bu formada satış dəstəklənər. Dünyanın çox az milləti Azərbaycan xalqı kimi diqqətcildir. Bu da bizə müsəlmançılıqdan gəlir. Məsələn, Birləşmiş Ərəb Əmirliklərində və İranda namaz vaxtı hər kəs maşınların qapılarını açıq qoyur, açar da üstündə. Heç kim ona toxunmur. Dünyanın son dövrü kommunizm prinsipləri islam adı altında bərqərar olacaq. Heç kim başqasının malına dəyməyəcək, ordular olmayacaq".

**AİB rəhbəri vurğulayıb ki, əgər həyətindəki satışın reallaşmasına AQTA baxış keçirərək gigiyenik tələblərin ödənilməsinə diqqət yetiribsə, problem yaranması qeyri-mümkündür:** "Agentliyin rəyi və sertifikatı yoxdursa, əlbəttə, belə malların satışı istehlakçıların həyatında təhlükə doğura bilər. Hər şey qaydasındadırsa, bu cür satış üsulunun gerçəkləşdirilməsini alqışlayıram. Belə hallar xalqın bir-birinə inamının artmasına gətirib çıxarır. AQTA-nın bütün prinsiplərinə əməl olunarsa, bu, yaxşı addımdır".

**Sücayət Mehti**





# "Hələ Ukraynada sülhdən danışmaq çox tezdir"

## Ərəstun Oruclu: "Şimal qonşumuz məqsədlərinə nail olmaq üçün sonadək gedəcəyini vurğulayıb"

**Türkiyə Xarici işlər naziri naziri Mövlud Çavuşoğlu Rusiya Xarici işlər naziri Sergey Lavrovla Moskvada müharibə ilə bağlı son vəziyyəti müzakirə ediblər.**

M.Çavuşoğlu bildirib ki, Türkiyə Rusiya-Ukrayna məsələsində ilk gündən dəqiq mövqe tutub və məsələnin beynəlxalq qanunlar çərçivəsində ədalətli həllinin tərəfdarıdır.

O əlavə edib ki, münaqişə tərəfi olan hər iki ölkə ilə yaxşı münasibətləri olan Türkiyə mövcud problemin sülh yolu ilə həllinə çalışır:

"Bu günə qədər Rusiya ilə istər Suriya, istər Livan məsələsində səmərəli iş birliyimiz olub. Bu etibarlı münasibətlər əsasında bu gün bu məsələni müzakirə edirik.

"Rusiya hakimiyyəti bəyan edir ki, Ukraynaya işğalçı yürüyüş onların son hədəfi deyil. Başqa ölkələrlə də eyni cür davranacaqlar"

**Müzakirələrin əhəmiyyətini "Şərq"ə təhlil edən politoloq Ərəstun Oruclunun fikrincə, Türkiyənin Ukrayna-Rusiya böhranında vasitəçilik etmək cəhdləri, təəssüf ki, heç bir nəticə vermir:**

"Baxmayaraq ki, bütün dünyanın gözü rəsmi Ankaradadır. Çünki o, NATO-ya üzv olan yeganə ölkədir ki, Rusiya ilə münasibətlərini qoruyub saxlamağa çalışıb. Buna görə də bu alyansa məxsus olan digər ölkələr ona danışıqlar üçün mövcud imkan kimi baxır. Türkiyənin səyləri isə dəhşətli müharibəni dayandırmağa, hətta atəşkəs elan etməyə kifayət eləmir".

Rusiyadan gələn bəyanatları xüsusi təhlükə kimi dəyərləndirən politoloq sülhdən danışmağın hələ ki, qeyri-mümkün olduğunu izah edib:

"Şimal qonşumuz məqsədlərinə nail olmaq üçün sonadək gedəcəyini vurğulayıb. Başqa ölkələri təhdid etmək, ekspertlərin dili ilə mesajlar vermək üçün fəaliyyət göstərir. Rusiya hakimiyyəti bəyan edir ki, Ukraynaya işğalçı yürüyüş onların son hədəfi deyil. Başqa ölkələrlə də eyni cür davranacaqlar. Sülhdən danışmaq kənara qalsın, bu kimi şeylərlə heç atəşkəsdən bəhs edə bilmərik. Türkiyənin səylərini səmərəsiz kimi qiymətləndirmək olmaz. Hər şey Rusiyanın mövqeyinin qeyri-rasional və aqressiv olmasından irəli gəlir".

**Üçüncü Dünya müharibəsinin ehtimalından bəhs edən Ə.Oruclu qeyd edib ki, nəzəri baxımdan hər şey ola bilər:**

"Bəzi ekspertlər Rusiyanın Polşa, Litva, İsveç, Finlandiya kimi ölkələrə hərbi hücum edəcəyini proqnozlaşdırırlar. Əgər NATO-ya üzv olan dövlətlərə qarşı işğalçılıq planı baş tutarsa, Üçüncü Dünya müharibəsindən söhbət gedə bilər. Çünki NATO lazımi cavabı verəcək. Bunun olub-olmayacağı məlum deyil. Amma Rusiya hökumətinin aqressiv mövqeyi dünya müharibəsini istisna etmir".

**Cəmilə Əzim**



# Anlaşma ancaq Ankaranın masasında reallaşa bilər

## Hazırda müharibənin dayanmasını istəyən yeganə tərəf kimi Türkiyə görünür

**Martın 16-da Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Moskvaya yola düşərək rusiyalı həmkarı Sergey Lavrovla görüşdü.**

Çavuşoğlu 1921-ci ilin martın 16-da Rusiya-Türkiyə arasında imzalanmış Moskva müqaviləsinin 101-ci ilində Rusiyaya ayaq basdı. Lavrovun görüş zamanı Moskva müqaviləsini xatırlatması göstərir ki, Çavuşoğlunun səfər tarixi həm də rəmzi məna daşıyır.

Bu, Rusiya-Türkiyə münasibətlərində gərginlik olmasına rəğmən, iki ölkənin əlaqələrində müsbət meyillər olduğuna işarədir. Lavrovun "Rusiya ilə Türkiyə 1921-ci ilin 16 martında dostluq və qardaşlıq müqaviləsini imzaladı" deməsi qlobal güclər tərəfindən sıxışdırılan Rusiyanın yalnız Türkiyə ilə özünə təsəlli tapdığının açıqlamasıdır. Ekspertlərin fikrincə, Rusiya, Ukrayna müharibəsində Ankaranı öz tərəfinə çəkmək istəsə də, Ankara Kiyevə dəstək verir. Müharibə tərəfinə çevrilməmək üçün isə Rusiyaya qarşı beynəlxalq sanksiyalardan da özünü kənarda tutur. Türkiyə Rusiyanın Ukraynaya təcavüzünü bütün parametrlər üzrə analiz edir. Ankara üçün ən böyük təhlükə Qara dənizdə hərbi balansın Moskvanın xeyrinə dəyişməsi ehtimallarıdır. Türkiyənin Qərblə soyuq münasibətləri olsa da, Qara dənizdəki qüvvələr tarazlığının pozulması riski Ankara-Vaşinqton əlaqələrində ortaq baxışı bərqərar edir.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında bildirib ki, Ankara Kiyevlə Moskva arasında anlaşmanın əldə edilməsinə çalışır.** Analitikə görə, Türkiyənin tərəflər arasında anlaşma əldə etmək imkanı zəif qiymətləndirilirdi. Lakin indiyə qədər kiçik də olsa irəliləyiş ehtimalının Ankaranın masasında ola biləcəyi müşahidə edilir: "Moskva razılaşmanın mümkün olduğunu, Kiyev Rusiyanın əvvəlki "ultimatum mövqeyinin" dəyişdiyini bildirir. Tərəflər bu fikrə Belarusdakı üç raundda və iki onlayn formatdakı görüşdə gəlsələr də, mümkün razılaşmanın xüsusilə Ukraynanın istəyinə uyğun olaraq, Türkiyənin vasitəçiliyi ilə olması istisna deyil. Prezident R.T.Ərdoğan da həmkarı V.Zelenski ilə telefonda bunu müzakirə etdi və Rusiya Prezidenti V.Putinlə də müzakirə edəcəyi gözlənilir. Açıqlamalar masada əlavə detalların da olduğu əsas müzakirə mövzusunun Ukraynanın "neytral statusu"nun olduğunu deməyə əsas verir. Moskva Kiyevin "İsveç modeli"nə mənfi münasibət bəsləmədiyini deyir. Kiyev qeyd edir ki, anlaşma olacaqsa, bu, başqa yox, məhz "Ukrayna modeli" olacaq. "İsveç modeli" Finlandiya modelinin başqa formasıdır. Ölkə tərəfsiz olur, lakin tərəfsiz olacaq Ukrayna öz ordusu və donanmasına sahib olacaq. Kiyevin dediyi "Ukrayna modeli" isə daha yüksək səviyyəli təhlükəsizlik qarantını özündə ehtiva edir. Ukraynanın təhlükəsizliyinə ABŞ, Fransa, Almaniya, Türkiyə və Rusiyanın iştirakı ilə kollektiv zəmanət verilir".

*A.Nərimanlı qeyd edib ki, hava məkanının bağlanması da əsas şərtlərdən biridir:* "Danışıqların hər iki tərəf üçün zaman qazanmaq manevri olduğu da istisna deyil. Xüsusilə "ultimatum mövqeyi"ni dəyişdirən Rusiyanın muzdlular vasitəsilə qüvvələrini cəmləşdirib, hücumu genişləndirəcəyi mümkündür. Qərb də Ukraynaya hərbi yardımların genişləndirir. Görünür ki, müharibənin növbəti, bəlkə də son mərhələsi hələ qabaqdadır. Lakin hazırda müharibənin dayanmasını istəyən yeganə tərəf kimi Türkiyə görünür və hər iki tərəfin əsas anlaşmanı Ankara masasında əldə edə biləcəyi ehtimalı daha böyükdür. Təbii ki, Bakı da bu prosesin iştirakçılarından olacaq".

**İsmayıl Qocayev**



# Britaniya Polşaya hava hücumundan müdafiə sistemi yerləşdirəcək

**İngiltərə Müdafiə Nazirliyi cümə axşamı bildirib ki, Britaniya özünün "Sky Saber" hava hücumundan müdafiə sistemini və onu idarə etmək üçün 100 hərbçini Polşaya yerləşdirəcək.**

Birləşmiş Krallığın Müdafiə Nazirliyi "Twitter"də bildirib ki, rəsmi Varşava hökuməti havadan müdafiə sistemi tələb edib:

"Sky Saber" Polşanın hava hücumundan müdafiəsini əhəmiyyətli dərəcədə artıracaq. Bu, görünməmiş sürət, dəqiqlik, performans və hədəf əldə etmə qabiliyyətinə malikdir". Rəsmi Londonun Müdafiə naziri Ben Vallace vurğulayıb ki, məqsədimiz Polşa Rusiya təhdidlərinə qarşı dayanmağa kömək etməkdir.

**Cəmilə Əzim**

# Ermənistan Azərbaycanın irəli sürdüyü öhdəlikləri yerinə yetirməlidir

## Mirzoyanın MDB-nin yaradılması haqqında sazişlə bağlı mülahizələrinin heç bir əsası yoxdur



**"Ermənistanın "sülh danışıqlarına" Minsk qrupunun cəlb edilməsi ilə bağlı növbəti manevr cəhdləri, Xarici işlər naziri Ararat Mirzoyanın məntiqsiz açıqlamaları rəsmi İrəvanın hələ də regiondakı mövcud reallıqları dəyərləndirmək imkanında olmadığını sübuta yetirir".**

**Bu sözləri siyasi icmalçı Elçin Mirzəbəyli deyib. Analitik bildirib ki, Azərbaycanın təklif etdiyi 5 baza prinsipindən üçü, birbaşa beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə əsaslanır:** "Baza prinsiplərinin birinci maddəsində qeyd olunur ki, Azərbaycan və Ermənistan bir-birilərinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını qarşılıqlı şəkildə tanımalıdır. Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan, yuxarıda iqtibas gətirdiyim maddə ilə bağlı ölkəsinin rəsmi mövqeyini ifadə edib. O bildirib ki, Ermənistan MDB-nin yaradılması haqqında saziş imzalamaqla artıq Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Təbii ki, bu konkret tələbdən, yaxud təklifdən növbəti dəfə ermənisayaq yayınma cəhdindən başqa bir şey deyil. Xatırladım ki, Müstəqil Dövlətlər Birliyinin yaradılması ilə bağlı Belovejsk razılaşması 1991-ci il dekabrın 8-də imzalanıb. Azərbaycan, Ermənistan və digər ölkələr razılaşmaya həmin ilin dekabrının 21-də qoşulublar. Həmin gün MDB-nin məqsədləri və prinsipləri haqqında Bəyannamə də imzalanıb. Sözügedən sənəddə qurum üzvü olan ölkələrin "bir-birilərinin ərazi bütövlüklərini tanıdıqları və hörmətlə yanaşdıqları, mövcud sərhədlərin toxunulmazlığı prinsipini qəbul etdikləri" imperativ şəkildə qeyd olunub. Amma nəzərə almaq lazımdır ki, Azərbaycanın birliyə qoşulması ilə bağlı sənəd ölkə parlamentində 24 sentyabr 1993-cü ildə ratifikasiya olunub və elə həmin gün MDB dövlət başçıları şurasının qərarı ilə ölkəmiz rəsmi şəkildə təşkilatın üzvlüyünə qəbul edilib".

**E.Mirzəbəyli xatırladıb ki, Ermənistan isə MDB-nin yaradılması ilə bağlı sənədi 1991-ci il dekabrın 26-da ratifikasiya edib və təbii ki, Azərbaycandan 1 il 9 ay öncə qurum üzvlüyünə qəbul olunub:** "Bu isə o deməkdir ki, Ermənistan Ararat Mirzoyanın iddia etdiyi kimi MDB-nin yaradılması ilə bağlı sənədi imzalayanda Azərbaycanın ərazi bütövlüyünü tanıya bilməzdi. Ona görə ki, Azərbaycan həmin dövrdə qurumun üzvü deyildi. Doğrudur, razılaşmada yer alan prinsiplər sonradan qoşulan dövlətləri də əhatə edir. Ancaq bunun Mirzoyanın istinad etdiyi zaman kəsiyinə heç bir aidiyyəti yoxdur. Bununla yanaşı qeyd etmək lazımdır ki, Azərbaycan və Ermənistan MDB-yə qoşulmaq haqqında sənədi dövlət başçılarının iştirakı ilə 1991-ci il dekabrın 21-də imzalayıblar. Sənəd hətta sonradan ratifikasiya olunsa da belə, Azərbaycanın 10 rayonu Ermənistan tərəfindən sözügedən razılaşma imzalandıqdan sonra işğal edilib. Bu rayonlardan biri - Zəngilan rayonu isə Azərbaycan MDB-yə rəsmi şəkildə üzv qəbul edildikdən sonra işğal altına düşüb. Bu isə o deməkdir ki, Ermənistan xarici işlər nazirinin mülahizələrinin heç bir əsası yoxdur və rəsmi İrəvan sülh sazişinin imzalanması üçün Azərbaycan tərəfindən irəli sürülən öhdəlikləri yerinə yetirməlidir. Əks təqdirdə bu sülh sazişinin imzalanmasının heç bir əhəmiyyəti olmayacaq".

**Siyasi şərhçi qeyd edib ki, Ermənistan Xocalı istisna olunmaqla, Azərbaycan hazırda işğaldan azad etdiyimiz bütün digər ərazilərini BMT-yə üzv qəbul olunduqdan sonra qəsb edib:** "Yeni təşkilatın nizamnaməsinin prinsiplərini kobud şəkildə pozub. BMT Nizamnaməsi isə MDB-nin yaradılması haqqında razılaşmadan və bu xüsusda sonradan imzalanan, ratifikasiya edilən bəyannamə və protokollardan dəfələrlə üstün hüquqi qüvvəyə malikdir. Qətnamələri heçə sayan bir ölkənin MDB-nin yaradılması haqqında sazişlə bağlı mülahizələrinə etimad göstərmək üçün isə düşünürəm ki, heç bir əsasımız yoxdur. Ermənistan məhz Azərbaycan qarşısında, həm də konkret önləyici təsir mexanizmləri olan öhdəliklər götürməlidir. Ermənistanın baza prinsiplərdən imtina etmək üçün heç bir tutarlı hüququ və məntiqli əsası ola bilməz".

**İsmayıl Qocayev**



# Putinin müharibəsi...

## Prezident rus xalqının ayağa qalxmasından ehtiyatlanır

**"Rusiya Müdafiə Nazirliyinin Ukraynada taktikası tamamilə özünü doğruldub". Bunu Rusiya Prezidenti Vladimir Putin iqtisadi-sosial sahə ilə bağlı keçirdiyi müşavirədə çıxışı zamanı deyib.**

Putin həmçinin bildirib ki, Qərb Rusiya cəmiyyətini "beşinci kolon"un əli ilə parçalamağa çalışır.

Onun sözlərinə görə, Qərbin əsas ümidi xaricdə yaşayan milli satqınlardır.

**Putinin çıxışını "Şərq"ə təhlil edən politoloq Əlimusa İbrahimov bildirib ki, müharibə aparan istənilən ölkədə proses uzandıqca narazılıqlar artır:** "Lakin Rusiyada vəziyyət daha ciddi və fərqlidir. Çünki onun müharibə apardığı ölkənin xalqı uzun müddətdir birlikdə yaşadığı qardaş millətdir. Buna görə də müharibənin başladığı gündən ölkənin müxtəlif şəhərlərində etiraz aksiyaları keçirilməyə başladı. İlk günlərdən bəzi yerlərdə 700, bəzilərində isə 5000-ə qədər insan həbs olunurdu. Üstəlik, həmin günlərdə durum çox ciddi deyildi və iqtisadi vəziyyət pisləşməmişdi. Putin və onun ətrafındakılar savaşın bu qədər uzanacağını təxmin etmirdi. Ona görə də buna hərbi, siyasi və iqtisadi baxımdan hazırlıqsız idilər. Eyni zamanda onlar sanksiyaların bu səviyyədə olacağını gözləmirdilər.

*"Ona görə sadə insanları "beşinci kolon" adlandıraraq onların gözlərini qorxudur"*

Hazırda Rusiyaya total sanskiya tətbiq olunur. Yəni Rusiyada xariclə azad ticarət edən sahə yoxdur. Bu da insanların maddi vəziyyətinin pisləşməsinə səbəb oldu. Bundan sonra müharibəyə qarşı olanlarla yanaşı iqtisadi vəziyyətin pisləşməsinə etiraz edənlər də küçələrə axışmağa başladı. Təbii ki, bunun qarşısını müəyyən tədbirlərlə almaq lazımdır. Ona görə də Vladimir Putin çıxışında bu məsələləri nəzərə çatdırdı və görülən tədbirlər haqqında məlumat verdi. Bu zaman Putin bir əlində kökə, digər əlində qamçı tutmuşdu. O, birdən-birə insanları hədələyə bilməzdi. Eyni zamanda insanlara maddi vəziyyətinin yaxşılaşdırılması üçün iqtisadi preferensiyalar verməli idi.

O bildirdi ki, biz savaşı başlamışıq və hər şey nəzərdə tutduğumuz kimi gedir. Qərb bizə "beşinci kolon"un vasitəsilə təzyiq göstərsə də, insanların əziyyət çəkməsinə icazə verməyəcəyik".

Politoloqun sözlərinə görə, Rusiyada küçələrə çıxıb etiraz edən hər kəs Qərbin "beşinci kolon"u adlandırılır: "Ancaq bu, düzgün qiymətləndirmə deyil. Çünki Amerikanın, Almaniyanın xəritədəki yerini bilməyən etirazçılar var. Müharibə şəraitində olan ölkədə bu normaldır. Ancaq yaxın günlərdə Rusiyanın aparıcı televiziyasında redaktorun müharibəyə qarşı şüarlar səsləndirməsi etirazçı qüvvələrin getdikcə artmasının sübutudur. Bu artım Putini narahat edib. Buna görə, sadə insanları "beşinci kolon" adlandırmaqla həmin şəxslərə xəbərdarlıq edir, qorxudur və nümayişlərə qatılmaqdan çəkinməyə çağırır".

**Sənan İsmayıl**

# "Bizi bu dəhşətli bəladan qurtarın"

## Müharibədə evi dağılan Ağdam sakini Prezidentə icra strukturlarından şikayət edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər bir məmurun, vəzifə sahibinin ilk növbədə xalqın xidmətçisi olduğunu daim vurğulayır, səlahiyyətlərini yerinə yetirməyən, tutduğu rəhbər vəzifədən sui-istifadə hallarına yol verən məmurları işdən azad edir.**

Bəziləri barəsində hətta cinayət işi də açılır, qanunsuz əməlləri ifşa olunur. Amma, təəssüf ki, hələ də səhlənkar davranan, vətəndaşların problemlərinin həlli ilə məşğul olmayan, süründürməçilik edənlər var. Ağdam rayonu, Xındırıstan kənd sakini Ramin Haqverdiyev rayon icra hakimiyyətindən, qəzalı evlərin araşdırılması üzrə Dövlət Komissiyasından narazıdır. R.Haqverdiyev bu barədə sosial şəbəkədə video paylaşıb. Prezident İlham Əliyevə müraciət edən vətəndaş məmurlardan şikayətini dilə gətirib. Videomüraciətində R.Haqverdiyev 44 günlük Vətən müharibəsində mənzilinin qəzalı vəziyyətə düşdüyünü bildirir: "Cənab Prezident, üzümü Sizə tuturam. Öncə Sizin bayramınızı təbrik edirəm. Siz xalqımızın 30 illik həsrətinə son qoydunuz. Torpaqlarımızı işğaldan azad etdiniz. Mənfur qonşularımızın atdığı mərmilərdən bizim evimiz də zədələnib. Mənzilə ciddi ziyan dəyib. Qəzalı evlərə baxış keçirilməsi, dəyən ziyanın müəyyənləşməsi üçün təşkil olunan Dövlət Komissiyası 4 dəfə mənzilə baxış keçirib. Lakin hələ də mənzilimiz təmir edilmir. Ailəmiz 2 ildir qəzalı evdə yaşayır. Mənim icra hakimiyyətinə müraciətimə cavab olaraq bildirilib ki, bizə 1000 maddi yardım ayrılıb. Cənab Prezident, bizi bu dəhşətli bəladan qurtarın. Xahiş edirik, bizə kömək edin".

**Məlahət Rzayeva**




# Korsikalılar ayağa qalxıb

## Parisin başının üstünü qara buludlar alıb

**Hər fürsətdə Azərbaycan qarşısında Ermənistanı dəstəkləyən, erməni separatizmini "xalqın öz müqəddəratını təyin etməsi" kimi qəbul edən Fransa bu günlərdə özü separatizmdən əziyyət çəkir.**

Bir neçə gündür ki, Fransaya bağlı Korsika adasında ixtişaşlar yaşanır. Adanın ən önəmli liman şəhəri Bastiada etirazçılar dövlət binalarına, polis bölmələrinə Molotov kokteylləri, daş və müxtəlif partlayıcılarla hücum edirlər. Bölgədə 40-dan çox insanın yaralandığı, onlardan 25-nin polis əməkdaşı olduğu bildirilir. Bastia qubernatoru şəhər əhalisinin təhlükəsizliyi üçün evlərində qalmağa dəvət etsə də, nümayişlərdə 7 mindən çox fəalın iştirak etdiyi bildirilir.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə bildirib ki, yaxın 10 ildə Avropada geniş vüsət alan separatizm hərəkatından Fransa da yan keçməyib. Analitikə görə, ölkə daxilində Korsika, Burqundiya, Bretoniya və azsaylı baskların müstəqillik hərəkatı mövcuddur. Korsikada baş verən hadisələr də bunu təsdiqləyir:** "Adada baş verən ixtişaşlar ilk belə hal deyil. Ehtimal ki, son da olmayacaq. Ada əhalisində ciddi mənada bir müstəqillik düşüncəsi hakimdir. Hətta bu istiqamətdə adada 5 may 1976-cı ildə yaradılan "Korsika Milli Qutuluş Cəbhəsi" adlı silahlı qruplaşma da fəaliyyət göstərir. Təşkilat 2015-ci ildə silahlı mübarizəni dayandırsa da, mövcud ixtişaşların da izi hiss olunur. Mövcud ixtişaşların əsas səbəbinə gəldikdə isə, korsikalılar adanın müstəqilliyini tələb edən və keçmiş qubernator Klod Erinnakı öldürməkdə təqsirli bilinən İvan Kolonnanın martın 2-də başqa bir məhkumun hücumuna məruz qalması və saxlanıldığı Fransanın Arles şəhərindəki həbsxanada koma vəziyyətinə düşməsinə qəzəblənib. Hadisədən sonra həmkarlar ittifaqlarının çağırışı ilə Korsikada Kolonnaya dəstək nümayişləri başlayıb. İvan Kolonnanın həbsxanada məhbuslardan biri tərəfindən ölümcül şəkildə döyülməsi şübhəli hadisədir. Çünki Kolonnan Parisin ada üzərindəki hakimiyyətinə ciddi təhdid hesab edilir. Mümkündür ki, İvan Kolonnanın ölümcül şəkildə döyülməsi rəsmi Parisin sifarişi ilə həyata keçirilib.

*Türkiyədə "Kürdüstan"ı, Azərbaycanda "Artsax"ı dəstəkləyən Fransa bu gün özü separatizmdən əziyyət çəkir*

Hadisə Parisin təlimatı ilə baş versə də, görünür, hadisələrin bu həddə çatacağı proqnozlaşdırılmırdı. Vəziyyətin ciddiləşməsi artıq rəsmi Parisi geri addım atmağa da vadar edib. Belə ki, Fransa Daxili işlər naziri Jerard Darman ixtişaşların səngiməsi halında adaya muxtariyyətin veriləcəyini vəd edib".

*T.Rzayevə görə, prinsip etibarilə rəsmi Paris bununla etirazçılar qarşısında geri addım atsa da, vədin gerçəkləşməsi sual altındadır:* "Məsələ ondadır ki, Fransa Prezidenti Emmanuel Makron da 2017-ci ildə prezident seçkiləri zamanı ada əhalisinə muxtariyyət sözü verib, ancaq bu günə qədər icra edilməyib. Nəticə etibarilə bu gün Korsika adasında baş verən ixtişaşlar bir daha onu göstərir ki, separatizmin iki üzü də kəskin bir bıçaq kimidir. Ondan bu və ya başqa formada istifadə edən istənilən ölkə gec-tez separatizm bəlasına düçar olur. Türkiyədə "Kürdüstan"ı, Azərbaycanda "Artsax"ı dəstəkləyən Fransa bu gün Korsikada həmin problemlə üzləşir. Korsikalıların öz müqəddəratını necə həll edəcəyinə gəldikdə isə, bunu zaman göstərəcək".

**İsmayıl Qocayev**

# Kremlin yeni "SSRİ" arzusu gorbagor oldu

## Ukrayna Rusiya mifini hər sahədə dağıtmaqla məşğuldur

*"Çox güman, İran Qərblə, ABŞ-la yaxın zamanda yeni müqavilələr imzalayacaq. Bu, İranın Rusiyadan aralı durmaq istəməsinə işarədir"*

**"Rusiyanın Ukraynaya hərbi təcavüzü, işğal cəhdi, oradakı davranışları Kremlin getdikcə daha çox təklənməsinə səbəb olur". Bu barədə ReAL Partiyasının sədr müavini Natiq Cəfərli deyib. Partiya rəsmisi bildirib ki, zaman birmənalı olaraq qəhrəman Ukrayna xalqının, dövlətinin lehinə işləyir: "Rusiyanın gözləntilərinin darmadağın olmasını dünya da izləyir.**

Uğursuzluq Moskvanın güvəndiyi ölkələrin bir-bir üz döndərməsinə və ya başqa çıxış yolları axtarmasına səbəb olur. Bu isə Kremli daha da qəzəbləndirir, aqressivləşdirir, amma səhvlərini də artırır. İraqın Ərbil əyalətində ABŞ-a məxsus məkanların vurulması cəhdinin arxasında Moskvanın "qulaqları" görünür. Ərbil etnik kürdlərin üstün olduğu bölgədir. İran qonşu ölkənin, İraqın başqa bölgələrində daha çox söz sahibidir. Amma Şimali İraqda, etnik kürdlərin daha çox olduğu bölgələrdə təsiri azdır. Əksinə, PKK kimi terror təşkilatlarının sözü



daha çox keçən bölgədir. Bu terror təşkilatının İranda da böyük bağlantıları, qrupları var. PKK-nın qurulmasında SSRİ əsas rol sahibi olub. Bu gün də Rusiyanın terror təşkilatına ciddi təsirləri var. İran indiki məqamdan istifadə edərək öz şərtləri çərçivəsində Qərblə, ABŞ-la yeni saziş imzalamaq istəyir. Bu isə Rusiyanın maraqlarına tam ziddir".

Siyasi şərhçiyə görə, Kreml danışıqları kəsmək, yaxud uzatmaq üçün Ərbildə əməliyyat keçirə bilərdi: "Sual yaranır, bəs niye İranın bəzi qüvvələri bu hücumu öz üzərinə götürdü? Bunun da səbəbləri var. İranda heç də hamı Qərblə yaxınlaşmağa isti baxmır, buna ciddi müqavimət göstərir. Bu anlamda o qruplarla Rusiyanın maraqları üst-üstə düşür. Amma çox güman, İran Qərblə, ABŞ-la yaxın zamanda yeni müqavilələr imzalayacaq. Bu, İranın Rusiyadan aralı durmaq istəməsinə işarədir. Bir sözlə, bu gün Ukrayna Rusiya mifini hər sahədə dağıtmaqla məşğuldur. Ən əsası isə Kremlin yeni "SSRİ" arzusu gorbagor olmaqdadır".

**İsmayıl**

# Kəndlinin əlindən dartıb aldıqlarının üstünə "dədəsinin" də qiymətini qoyurlar

## Fuad İbrahimov: "Kənd təsərrüfatı məhsullarının satış yarmarkasında kəndlilər iştirak etmir, şəhərli satıcılar, alverçilər işləyir"

**Paytaxtda və bölgələrdə bayramqabağı yarmarka ənənəsinə yenə "sadiq" qalındı. Sadiq sözünü ona görə dırnaq arasına aldıq ki, bu ifadənin bütün mənalarda, hərtərəfli təsdiqini tapdığı aydın olsun; təkcə, yarmarka ənənəsi davam etmir, yarmarkalarda qiymətlərin bazar və market qiymətlərindən fərqlənmədiyi, yarmarkalarda yenə də kəndlinin əlindən dartıb aldıqları məhsulun üzərinə "dədəsinin" qiymətini qoyan alverçilərin meydan sulaması ənənəsi də pozulmayıb.**

Pozulana da oxşamır. Ənənələrə sadiqlik belə olur. Yarmarkaların alverçilərin, monopolistlərin məkanı olması gerçəyi illərdir dəyişmir. Yeni il, Novruz, Ramazan bayramları öncəsi kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil olunur, lakin əhali həmişə narazı qalır. Səbəb, əlbəttə ki, qiymətlərin əhalinin aztəminatlı təbəqəsi üçün əlçatmaz olmasıdır.

**Problem AzTV-nin "Çıxışa doğru" verilişində ekspertlərlə müzakirəyə çıxarılıb. Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, sosioloq Elçin Bayramlı qeyd edib ki, yarmarkaları alverçilər zəbt edib, kəndlilər və kiçik fermerlər ora buraxılmır.** Ekspertin fikirlərinə Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi Rəşad Kərimov etiraz edib. Bildirib ki, bu, ola bilməz, "biz kim müraciət eləsə onun üçün hər cür şərait yaradırıq, özü də pulsuz". Verilişin gedişində studiyaya 4 nəfər zəng edərək bildiriblər ki, bəli, yarmarkalara adi kəndlilər buraxılmır, əksəriyyəti alverçilərdir. E.Bayramlı da yarmarkaya buraxılmayan 10-la belə şəxs tanıdığını deyib. Sosioloq daha sonra sosial şəbəkə üzərindən paylaşım edərək yarmarkaya getmək istəyən kəndlilərə müraciət edib: "Dostlardan xahiş edirəm ki, kimin kəndlərdə belə dostu, tanışı, qohumu varsa, xəbər eləsin, mən təminat verirəm, yarmarkaya tam pulsuz buraxılmağına, üstəlik lazımi avadanlıqlar və ləvazimatlarla pulsuz təmin olunmasına".

E.Bayramlı konkret misal çəkərək qeyd edib ki,




*"Daha bunun harası yarmarka oldu?!"*

kələm yarmarkada 1 manat 20 qəpikdir, amma yerində kəndlidən 30 qəpiyə alınır. Kəndli becərdiyi məhsulu özü yarmarkaya gətirib satışa çıxarsa tutarlı qazanc əldə edər. Zəhmətinin bəhrəsini həm özü görər, həm də vətəndaşlar ucuz və keyfiyyətli məhsul əldə edər. Lakin alverçilər buna imkan vermir. Sosial şəbəkədə məsələyə münasibət bildirənlər "Bal yarmarkası" barədə də eyni narazılıqlar olduğunu deyiblər: "Bakıda bal yarmarkasında gündəlik iştirak üçün səhv etmirəmsə, 160 manat tələb edirdilər. Yarmarkada da satılan balların yarıdan çoxu saxta ballar olub. Orada iştirak edənlər imkan vermir ki, fermerlər gətirib təmiz bal satsın. Bazarda bu gün balın qiyməti 20-30 manat arasında dəyişir. Amma bəzi alverçilərin ucbatından tək-tük adamlar satışa əsl bal çıxara bilir. Bal yarmarkasında bir adamın iştirakı üçün o qədər xərclər tələb olunur ki, heç kim bununla razılaşmır. Yarmarka təşkil edənlər də saxta balların satışında maraqlıdır. Ona görə ki alverçi, yəni saxta bal satan iştirak etmək üçün tələb olunan pulu verir. Amma əsl bal satan adam rüşvət verib o sırada dayanmır. Yarmarkalarda da vəziyyət belədir. Kəndli əziyyət çəkib əkib-becərir, ortada isə işbazlar və bəzi qurumlar qazanır".

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında qeyd etdi ki, fermerin - kəndlinin bu yarmarkalara məhsul gətirib satışa çıxardığına əmin deyil:**

- Kənd təsərrüfatı məhsullarının satış yarmarkasında kəndlilər iştirak etmir, şəhərli satıcılar, alverçilər işləyir. Həmin yarmarkalarda paytaxtda ticarətlə məşğul olanları, bazarlarda alver edənləri görürük. Çox nadir hallarda orda kənddən gəlmiş fermer görə bilərsiz. Birincisi, fermerin yarmarkada satışla məşğul olması üçün gecələməyə yeri olmalıdır. Fermer gündüz qazandığı pulu gecələmək üçün kirayələdiyi otağa verəcəksə, daha niyə şəhərə gəlir?! Bilirsiz, çalışırlar, görüntü yaratsınlar ki, bayram ərəfəsində yarmarkalar təşkil olunur. Eşidilər ki, yarmarka olmalıdır, təşkil edirlər. Amma yarmarkanın mahiyyətini bilmirlər. Yarmarkanın əsl mahiyyəti kəndlinin öz məhsulu ilə orada təmsil olunması, becərdiyi məhsulu özünün satmasıdır. Hamımız da bilirik ki, qiymət o zaman bahalaşır ki, məhsul ikinci, üçüncü "əldən" keçir. Yəni yarmarkanı, yarmarka vacibdir deyə, təşkil edirlər, amma yarmarka mahiyyəti qalır kənarda. Bazardan bir fərqi olmur. Bəzən yarmarkanı bazarla yanaşı təşkil edirlər. Yaxınlıqdakı bazardan çadırlar, piştaxtalar götürüb quraşdırırlar. Bazardakı satıcıları da müəyyən müddətə yarmarkaya cəlb edirlər. Bu, aldadıcı üsuldur. Ona görə də qiymətlər ucuz deyil, əhali də narazıdır. Çünki ənənəvi bazarla, market qiymətləri ilə yarmarka qiymətləri arasında gözəçarpan fərq yoxdur. Ucuz məhsullar ola bilər, amma onlar da keyfiyyətsizdir. Keyfiyyətsiz məhsulu vətəndaş niyə almalıdır? Əsl yarmarka təşkil etmək istəyirlərsə, bunun sadə yolu var, o da kəndlinin kənddən şəhərə gəlişini təmin etmək, becərdiyi məhsulun sərbəst satışına şərait yaratmaqdır. Amma monopoliya buna imkan vermir. Yarmarkada bazardakı alverçilər məhsul satacaqsa, daha bunun harası yarmarka oldu?!

**Məlahət Rzayeva**

# Hər bir detalı dəqiqliklə ölçülüb-biçilməlidir

## SAT imtahanında iştiraka iddia edənlər ehtiyatlı olmalıdır



**Azərbaycanda keçirilən beynəlxalq imtahanların (məsələn, SAT - Scholastic Aptitude Test - akademik qabiliyyət imtahanı) nəticələrinin hansı hallarda tanınmasıyla bağlı Trend-in sualını cavablandıran Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov bildirib ki, bu problem təkcə Azərbaycanda qeydə alınmır:**

"Məsələn, Türkiyə Respublikasında SAT imtahanlarının nəticələri bir neçə dəfə ləğv olunub. Adətən, imtahanların nəticələri ilə bağlı hər hansı bir şübhə olduqda belə qərarlar verilir. Beynəlxalq imtahanların keçirilmə yeri, şərait, bütün şərtlər beynəlxalq standartlar çərçivəsində tənzimlənir. Lakin bir çox hallarda şübhəli məqamlar olur. Bu da daha çox SAT imtahanı keçirilərkən ölkələr arasındakı saat fərqi ilə bağlı yaranır. Bunu əsas götürərək iddia edirlər ki, imtahan ola bilsin bir ölkədə daha erkən keçirilib və suallar hansısa iştirakçı tərəfindən başqa birinə və ya ölkəyə ötürülüb".

İ.Orucov bildirib ki, nəticələrin ləğvindən ehtiyat edən bəzi şəxslər imtahanı Gürcüstanda verməyi üstün tuturlar: "Lakin bir daha bildirirəm ki, bu kimi problemlər yalnız imtahan nəticələrinə şübhə yarandıqda baş verir və nadir hallarda olur. Bu səbəbdən, bütövlükdə Azərbaycanda verilən beynəlxalq imtahanlar xaricdə tanınmır, desək, düzgün olmaz". Qeyd edilir ki, Azərbaycanda beynəlxalq imtahanlar aidiyyəti üzrə müxtəlif qurumlar və səfirliklər tərəfindən beynəlxalq normalara uyğun qaydada keçirilir.

**Məsələyə aydınlıq gətirən təhsil eksperti Elçin Əfəndi "Şərq"ə açıqlamasında qeyd etdi ki, beynəlxalq imtahanlarda iştiraka iddia edənlər ehtiyatlı olmalı, hər bir detalı dəqiqliklə ölçüb-biçməlidirlər:**

- Azərbaycanda beynəlxalq imtahanları keçirən rəsmi qurum Dövlət İmtahan Mərkəzidir. Amma bəzi şirkətlər də var ki, beynəlxalq imtahanların keçirilməsinə müvafiq lisenziya alıblar və onlar da paralel olaraq bu imtahanları keçirirlər. Hesab edirəm ki, diplomların tanınmasını istəyiriksə, beynəlxalq imtahanlarda DİM-ə üstünlük verilməlidir və DİM-in keçirdiyi imtahanlarda iştirak edilməlidir. Digər şirkətlərin təşkil etdiyi beynəlxalq imtahanlarda iştirak etmək istəyənlər də əvvəlcədən dəqiq araşdırsınlar ki, bu şirkətin lisenziyası varmı, diplomları tanınırmı, bu şirkət beynəlxalq qurumun rəsmi distribyütorudurmu, sonra qərar versinlər.

**İmtahan nəticələrinin ləğvinə gəlincə, E.Əfəndi ötən illərdə belə halların baş verdiyini dedi:**

- Bu, o zaman olur ki, beynəlxalq qurum tərəfindən imtahan cavabları sızdırılır. Belə hallar məlum olduqda, təbii ki, imtahan nəticələri ləğv edilir. Bunda da günahkar həmin qurumlardır. Ötən illərdə belə hallara bəzən rast gəlinirdi. Son illərdə imtahanlar şəffaf keçirilir. Mən yenə də tövsiyə edirəm ki, hansı qurumun imtahan nəticələri beynəlxalq səviyyədə tanınırsa, o qurumun keçirdiyi imtahanlarda iştirak etsinlər.

**Məlahət Rzayeva**

## Təranə Qumralın qızı əri ilə fotosunu göstərdi



**Müğənni Təranə Qumralın qızı Qumral sosial şəbəkədə yeni paylaşım edib.**

"Şərq"in məlumatına görə, o, həyat yoldaşı Natiq Abdulla birgə fotosunu izləyiciləri ilə bölüşüb.

Qumral paylaşımında türkcə "Canım kocişim, iyi ki, varımsın"-, sözlərini yazıb.

*Qeyd edək ki, "koca" sözü türk dilindən tərcümədə "ər" deməkdir.*

**Aygün**

## "Birinci özümü sevirəm"

### Günay İbrahimli efirdə özünü öydü



**Müğənni Günay İbrahimli öz ünvanına xoş sözlər söyləyib.**

"Şərq" xəbər verir ki, "Söz Baz" verilişinin qonağı olan müğənni Günay İbrahimli bu sözləri deyib:

"Birinci özümü, sonra ətrafımdakıları sevirəm. Axı özümü sevməsəm, sizi sevə bilmərəm. Hər kəsə inad yolu bir çıxmışıq, hər zaman səninləyəm. Axıra qədər də səninlə olacağam".

## Vəfa Zeynalova ağlaya-ağlaya video paylaşdı



**Əməkdar artist Vəfa Zeynalovanın Milli Onkologiya Mərkəzindən yayımladığı video diqqət çəkib.**

Axşam.az xəbər verir ki, görüntüdə aktrisanın ağladığı əks olunub. V.Zeynalova ağlaya-ağlaya həkimlərə təşəkkür bildirib. "Bayramdır, amma həkimlər iş bağındadır. Heç kimin yolu bura düşməsin. Amma düşəndə də yaxşı ki, həkimlərimiz var. Bir barmağımız kəsiləndə belə onlara müraciət edirik" deyə, aktrisa gözünün yaşını silə-silə söyləyib. İzləyicilərinin ona səhhəti ilə bağlı ünvanladığı suallara aktrisa "Sağlamam, səhhətimlə bağlı heç bir problem yoxdur. Sadəcə, yaxşı həkimləri siz də tanıyasız deyə paylaşım etdim. Vaxtilə qardaşımı müalicə edən həkimlər idi. Hamınıza can sağlığı arzulayıram" deyə, cavab verib.



## Orqanizmə birbaşa ziyandır

### Həkim terapevt: "Səhər tezdən xaş yemək olmaz"

**"Evdə 3-4 litr su içmək də düzgün deyil. Hər kəs eyni dərəcədə su, qida qəbul edə bilməz"**

Medicina.az xəbər verir ki, bu barədə sualları Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, həkim-terapevt Zakir Quliyev canlı yayımda cavablandırarkən deyib.

O bildirib ki, səhər xaş yemək orqanizmə birbaşa ziyandır:

"Biz faydalı və balanslı şəkildə qidalanmanı tövsiyə edirik. Suyun da, qidanın da orqanizmin tələbindən artıq qəbulu ziyandır. Ürək çatışmazlığından əziyyət çəkən insanlar var ki, gün ərzində 3-4 litr su qəbul edir və ürəyin ağırlaşmış vəziyyətində həkimə müraciət edir. (oxu.az)

Kişilərdə ortalama 2 min kalori qəbulu olur. Lakin bunu da metobolizm sürəti tənzimləyir. Bu da standart ola bilməz - orqanizm individualdır. Odur ki, insanlar bütün qidaları zəruri miqdarda və düzgün şəkildə istehlak etməlidirlər ki, orqanizm metobolizm sürətinə müvafiq olsun".

## Ukraynadan Azərbaycana 10 minədək şəxs köçüb

### Azər Allahverənov: "Ancaq hələ ki, yollar üzü Qərbə doğrudur. Yəni Moldova, Rumıniya, Macarıstan və Polşa istiqamətindədir"

**Ukraynada yaşayan vətəndaşlarımızın təxliyəsinə başlanılıb və 9 500-dən artıq şəxs təxliyə edilib.**

Bunu Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov mediaya açıqlamasında deyib.

O qeyd edib ki, ölkəyə təxliyə edilənlər arasında Ukrayna vətəndaşları da var.

"15 gün ərzində 2 800 Ukrayna vətəndaşı ölkəyə gəlib", - deyə o bildirib.

**Ukrayna vətəndaşlarının Azərbaycana təxliyəsi ilə bağlı "Şərq"ə danışan Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri Azər Allahverənov bildirib ki, bu insanların çoxu Azərbaycan Respublikasının vətəndaşları ilə birgə nikahda olan şəxslərdir:**

"Ailə parçalanmasın deyə həyat yoldaşları ilə birlikdə gəlirlər. Ancaq bu hələ Azərbaycana gəlmək istəyənlərin çox cüzi bir faizidir. Ukraynadan azərbaycanlılarla evli olan və bura gəlmək istəyən xeyli sayda Ukrayna vətəndaşı var. Ancaq hələ ki, yollar üzü Qərbə doğrudur. Yəni Moldova, Rumıniya, Macarıstan və Polşa istiqamətindədir".

**Şura sədri onu da qeyd edib ki, həmin şəxslər Azərbaycan ərazisinə daxil olduqdan sonra 15 gün ərzində Miqrasiya Xidmətində qeydiyyatdan keçib 90 gün burada qala bilərlər:**



"Daha uzun müddət qalmaq istəyənlər isə müvəqqəti yaşamaq icazəsi almalıdırlar. Bu zaman əsasən onların Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olması nəzərə alınır. Əgər bu yoxdursa, Ukraynadakı vəziyyətə görə onlara müvəqqəti yaşamaq icazəsi verilir. Ölkəyə gələn insanların bir qismi də qaçqın statusu almaq istəyirlər. Onların bu barədə müraciətlərinə baxılır. Bu proses 3 aydan 6 aya qədər çəkə bilər. İndiyədək bununla bağlı 4 ailə müraciət edib. Hazırda onların ölkə ərazisində sığınması üçün şərait yaradılır. Sonrakı mərhələdə iltimasla bağlı əsaslar təsdiqini taparsa, qaçqın statusu ilə təmin olunacaqlar. Nəticədə onlar qaçqınlar üçün nəzərdə tutulan sosial paket və imkanlardan yararlana biləcəklər".

**Sənan İsmayıl**


Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu

KURSLAR

-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)

Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com


## Gürcüstanın üzü güldü

### Pandemiyanın endemiyaya çevrildiyi elan olunub



**"Bütün əlamətlər göstərir ki, Gürcüstanda koronavirus pandemik yayılmadan endemik yayılmaya keçir".**

"Report"un yerli bürosu xəbər verir ki, bunu ölkənin səhiyyə nazirinin müavini Tamar Qabuniya brifinqdə deyib.

O bildirib ki, Gürcüstanda epidemioloji vəziyyətin sürətli templərlə yaxşılaşdığını təsdiqləyən bütün göstəricilər var:

"Bu, o demək deyil ki, vəziyyət diqqətdə saxlanılmamalıdır. Qoruyucu maskadan imtina etmək hələ olmaz. Hesab edirik ki, infeksiyanın yayılması pandemik deyil, daha lokal olacaq".

*Qeyd edək ki, Gürcüstanda COVID-19-a ilk yoluxma faktı 2020-ci ilin fevralın 26-da qeydə alınıb. Hazırkı dövrədək virusa 1 639 678 nəfər yoluxub ki, onların da 1 564 011-i müalicə olunaraq sağalıb, 16 612-si isə vəfat edib.*

**Elan**

İsmayılov Fərahim Taryel oğlunun adına verilmiş gizirin, miçmanın SQ № 0014284 şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.







Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 783


# Azercell tələbələr üçün yeni imkanlar açır

## Şirkət növbəti əmək yarmarkalarında iştirak edib




**Ölkənin ən yaxşı işəgötürən şirkətlərindən biri olanAzercellistedadlı gənclərinişə cəlb olunmasına, peşəkar kadrların yetişdirilməsinə, onların bilik və bacarıqlarının artırılmasına daim xüsusi diqqət ayırır. Tələbə və məzunlar üçün keçirilən əmək yarmakalarında fəal iştirak edən Azercell bu dəfə də ənənəsinə sadiq qalıb.**

Belə ki, "Azercell Telekom" MMC Qərbi Kaspi Universitetində keçirilən əmək yarmarkasında iştirak edib. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən təşkil edilən tədbirin məqsədi qısa müddət ərzində işəgötürənlərin zəruri peşəyə, ixtisasa və təcrübəyə malik olan kadrların seçiminə kömək göstərilməsindən ibarətdir.

"Azercell Telekom" MMC-nin gənclərin peşəkar kadr hazırlığına dəstək məqsədiləiştirak etdiyidigərplatformalar arasında "İBM Cybersecurity Analyst Professional Certificate" və "Google Data Analytics Professional Certificate" inkişaf proqramları çərçivəsində təşkil olunan əməkyarmarkasıxüsusi yer tutur. Sərgidə 200-dən artıq gənc, data analitikası və kibertəhlükəsizlik üzrə kadr axtarışında olan müəssisə və təşkilatlar iştirak ediblər.

Yarmarka çərçivəsində Azercell-in İnsan Kapitalının İdarə Edilməsi departamentinin mütəxəssisləri iş axtaran gəncləri maraqlandıran sualları cavablandırıb, şirkətdə mövcud vakansiyalar, iş şəraiti, namizədlər üçün tələblər və kadrların seçilməsi, tələbələr üçün təşkil edilən təcrübə və təqaüd proqramları haqqında ətraflı məlumatı bölüşüblər.

*Qeyd edək ki, on beş ildən artıqdır ki, Azərbaycan universitetlərində təhsil alan istedadlı gənclər Azercell-in xüsusi Tələbə Təqaüdü ilə təltif olunur və Təcrübə Proqramları çərçivəsindəşirkətdə iş təcrübəsi ilə yanaşımüxtəlif təlimlərdən də faydalana bilirlər.*



## Avropada yeni avtomobillərin satışı son 29 ilin ən aşağı səviyyəsinə düşüb

**Fevral ayında Avropa İttifaqının (AB) avtomobil bazarında satışlar tədarük problemlərinə görə son 29 ilin ən aşağı səviyyəsinə enib.**

Azərtac xəbər verir ki, bu barədə Avropa Avtomobil İstehsalçıları Birliyi (ACEA) məlumat yayıb.

Çip çatışmazlığı və tədarük zəncirindəki problemlər Avropa ölkələrində yeni avtomobillərin satışına mənfi təsir göstərməkdə davam edir. Fevral ayında Aİ ölkələrində yeni avtomobillərin qeydiyyatı tarixdə ən aşağı səviyyəyə düşüb.

ACEA-ya görə ötən ilin fevralında 771 min 349 olan yeni avtomobillərin satışı bu ilin eyni ayında 719 min 465-ə geriləyib. Sözügedən dövrdə Aİ-də yeni avtomobillərin satışı ötən ilin fevral ayı ilə müqayisədə 6,7 faiz azalıb.

Beləliklə, fevral ayında Aİ-yə üzv ölkələrdə yeni avtomobillərin satışı bu göstəricilərin qeydə alındığı 1993-cü ildən bəri ən aşağı səviyyəyə düşüb. Avropada avtomobil satışları ötən ilin iyul ayından etibarən hər ay azalır.

İtaliyada isə avtomobil satışları fevral ayında keçən ilin eyni dövrü ilə müqayisədə 22,6 faiz azalıb. Keçən ay bu ölkədə 110 min 869 yeni avtomobil qeydiyyata alınıb.

## Alen Delon ölmək üçün oğlundan kömək istədi



**86 yaşlı məşhur aktyor Alen Delon böyük oğlu Entonidən ölümünə kömək etməsini istəyib.**

Oxu.az xəbər verir ki, aktyor hər zaman evtanaziyaya qarşı olmadığını söyləyib. Məhz bu səbəbdən də evtanaziyaya rəsmi şəkildə icazə verilən İsveçrəyə köçüb.

"Mən həyatdan köçməyin bu üsulunu daha məntiqli və təbii hesab edirəm. Yaşlandıqca, xəstəxanalar və iynələr olmadan həyatdan sakit bir şəkildə getmək hüququmuz var", - deyə o bildirib.

## 6 il eşq yaşadılar

### Cütlük nikah masasına əyləşib



**Sonuncu dəfə "Alev alev" serialında rol alan türkiyəli aktrisa Demet Evqar ərə gedib.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, aktrisa 6 ildir eşq yaşadığı sevgilisi Levent Babataşla dünən nikah masasına əyləşib. Cütlüyün özəl günündən görüntülər sosial şəbəkədə yayılıb.**

***Qeyd edək ki, aktrisa 3 aylıq hamilədir.***

## İki ilə tikilib

### Yıxılmış UFO-ya bənzəyən ev 40 dərəcədən artıq qızmayacaq



**Yıxılmış UFO-ya bənzəyən bina əyilmiş zirvə formasında olmaqla iki il ərzində tikilib.**

**Azərtac xarici saytlara istinadla xəbər verir ki, qeyri-adi formanın yaranmasında məqsəd binada günəş panellərindən istifadə etməklə onu cənuba tərəf yönəltməkdir.**

**Layihə müəllifinin fikrincə, bununla günəş panellərinin effektivliyi daha da artmaqla yanaşı, ev 40 dərəcədən artıq qızmayacaq. Binanın bütün konstruksiyası taxta və şüşədən hazırlanıb.**

## Müğənninin əri müflis oldu



**Türkiyəli müğənni Demet Akalının boşandığı, ancaq eyni evdə yaşadığı həyat yoldaşı Okan Kurtun ailəsinə aid nəqliyyat şirkətləri müflis olub.**

**Axşam.az əbər verir ki, müflis olan 2 şirkətin borcu isə 510 milyon lirədir.**

***Qeyd edək ki, firmanın sahib olduğu mülklərin ümumi dəyəri isə 128 milyon lirə təşkil edir.***



# Bu məktəbin bütün məzunları şəhiddir

### Məktəbin 1921-ci ildə heç bir məzunu olmayıb





**Osmanlı Türkiyəsində fəaliyyət göstərən "Məktəb-i Tibbiyye-yi Şahanə"yə 1915-ci ildə daxil olmuş tələbələrin hamısı Çanaqqala savaşında şəhid olub. Bunu Türkiyə Tibb Elmləri Universitetinin rektoru professor Cevdet Erdöl çıxışı zamanı bildirib.**

"Həkimlərimiz daim milli mücadilə içində olub. Həkimlərimiz, tibb işçilərimiz ya bayraqları bayraq etmək üçün tökülən qanların sahibi mehmetciyə şəfa olub, ya da bu torpaqlar üçün şəhadət şərbətini içməyi seçiblər", söyləyən rektor qeyd edib ki, 1915-ci ildə tibb məktəbinə daxil olmuş gənclərin hamısı könüllü kimi Çanaqqala daxil, bütün cəbhə bölgələrinə yollanıblar. Bu səbəbdən məktəbdə dərslər dayandırılıb, məktəb 1 il bağlı qalıb və bina "Hilali-Əhmər" xəstəxanası kimi fəaliyyət göstərib. 765 tələbədən 346-sı şəhid oldu, şəhidlər arasında adları olmayanlar da geri qayıtmadı. Odur ki, məktəbin 1921-ci ildə heç məzunu olmadı. Tibb məktəbi tələbələrinin Çanaqqalanın keçilməzliyində əməkləri böyükdür. Müharibədə tək silahlar "danışmır", yoluxucu xəstəliklər də əsgərləri əldən salır. Tibb məktəbinin tələbələri həm əsgərlərə yardım etdi, həm də xəstəliklərin önünü kəsmək üçün mücadilə verdi. Məktəbin bütün avadanlığı da o dönəmdə cəbhəyə daşınıb. Rektor Çanaqqala savaşında adını tarixə yazan bir həkimdən - Tarik Nüsrətdən də bəhs edib: "Ağrıkəsici qıtlığı yaşandığından həkimlər hər xəstəyə morfin iynəsi vurmur, əməliyyatla həyata dönəcəklərinə əmin olduqları əsgərləri, ilk növbədə, təcili əməliyyat edirlərmiş. Yaralılardan biri Tarik Nüsrətin önünə gətirilib, həkim ona baxıb və ümidsiz yaralı olduğunu anlayaraq kölgəlik bir yerə aparılmasını məsləhət görüb. Bu zaman yaralı əsgər "ata, ata" - deyə qışqıranda həkim əsgərin öz oğlu olduğunu başa düşüb. Lakin yenə də "onu kölgəlik bir yerə aparın", deyib. Bir müddət sonra oğlunun yanına getdiyində canını tapşırdığını görüb. Ağlayaraq "bağışla, oğlum, o morfin sənin haqqın deyildi" - söyləyib: "Türk insanı savaşı həm də belə həkimlər sayəsində qazandı".

**Məlahət Rzayeva**



# İtlər 800 dəfə dişlədi, qanının 30 faizini itirdi

### Gənc qızın yaşadığı dəhşət qan dondurur



**Dəhşətli hadisə ABŞ-ın Texas ştatında baş verib. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, it baxıcılığı edən 22 yaşlı Jaklin Durand ad gününü qeyd etməyə hazırlaşdığı günlərdə həyatının bəlkə də ən böyük faciəsini yaşayıb.**

J.Durand baxıcılıq etdiyi itlərin qaldığı mənzilə gedib. Mənzilin qapısını açar-açmaz alman cinsi it Shepard və Boxer-Pitbullun onun üzərinə atlanıb, gənc qızı parçalamağa başlayıblar. Qəfil hücumdan az qalsın ağlını itirən qız təcili xilasedici xidmətinə zəng edə bilib. Xilasedicilər 37 dəqiqə sonra hadisə yerinə çatıb. Bu müddət ərzində gənc qız itlərin əsiri olub və itlər onu tam 800 dəfə dişləyiblər. Qızın üzündə, bədənində salamat yer qalmayıb. Tanınmaz hala düşüb. Xilasedicilər mənzilə daxil olduqda əvvəlcə nə baş verdiyini anlamayıb, çünki qızın yalnız ayaqları görünürmüş, itlər də xilasedicilərin qıza yaxınlaşmasını əngəlləyirmiş. Lakin xilasedicilər güllələrin yaralıya dəyməsindən ehtiyatlanaraq itlərə atəş açmaqdan çəkiniblər. Nəhayət, itləri uzaqlaşdırdıqdan sonra Jaklini xəstəxanaya aparıblar. Gənc qız qanının 30 faizini itiribmiş. Başına gələn dəhşət barədə SBC-yə danışan Jaklin "öləcəyimi zənn etdim. Çox çarəsiz idim. Artıq həyatımın sonu olduğunu düşündüm", söyləyib. Jaklin 1 həftə komada qalıb. Üz dərisində, başında ağır yaralar uzun müddət sonra sağalıb. Jaklinin üzü hələ də tanınmaz haldadır. Həkimlər dəri köçürməsini məsləhət görür. İtlərin sahibi isə SBC-yə "biz bilərəkdən kimisə təhlükəyə atmadıq. Bu itlər indiyədək kimsəyə hücum etməmişdi", desələr də Durand ailəsinin vəkili fərqli fikirdədir. Vəkil itlərin olduğu mənzilin qapısında "çılğın itlər. Lütfən, qapını döyməyin, zəngi basmayın. Telefonla zəng edin və ya mesaj yazın" qeyd edilmiş lövhə vurulduğuna işarə edərək "bu lövhə köpək sahiblərinin itlərinə bələd olduğunu sübut edir. Sahibi itlərin qapıya gələnin üzərinə hücum çəkəcəklərini bilirmiş. Bunu bilə-bilə it baxıcısı kirayələmək cinayətdir", deyib.

**Məlahət**

## "Dünya gözəli" seçildi

### Polşadan olan 22 yaşlı Karolina Belyavska sevinib



**Ötən gün 70-ci "Miss World 2021" beynəlxalq gözəllik müsabiqəsi baş tutub.**

Polşadan olan 22 yaşlı Karolina Belyavska "Dünya gözəli" seçilib. Tacı ona "Dünya gözəli 2019" titulunun sahibi Toni-Enn Sinqx təqdim edib.

Yarışda ikinci yerə amerikalı Şri Sayni, üçüncü yerə isə Kot-d'İvuardan olan Oliviya Yayse layiq görülüb.

*Xatırladaq ki, titul uğrunda müxtəlif ölkələrdən 97 qız mübarizə aparıb. Onlardan 40 ölkənin nümayəndəsi finala qədər yüksələ bilib.*

*Qeyd edək ki, müsabiqə koronavirus səbəbi ilə ötən il təxirə salınmalı olub.*

## Mahsunun xanımına xəyanət etdiyi görüntülər yayılıb



**Türkiyəli müğənni Mahsun Kırmızıgül vəkil həyat yoldaşı Ece Binaya xəyanət edib.**

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, sənətçinin ötən gün sosial şəbəkələrdə kimliyi bəlli olmayan xanıma səmimi görüntüləri yayılıb. "Al sana haber" verilişində isə Seyhan Soylu Kırmızıgülün pərəstişkarı ilə eşq yaşadığını deyib: "Dörd ay əvvəl həyat yoldaşı ilə mübahisə edib. Həmin ərəfədə prodüser Murad Tokatın evində 10 gün qalıb. Bu qızla isə uzun müddətdir münasibətdədir. Ərinin xəyanətini Ece Binay da öyrənib".

*Qeyd edək ki, Mahsun və xanımı 6 il əvvəl ailə qurub.*

## Aleyna bir geyimdən 300 min qazandı



**Türkiyəli müğənni Aleyna Tilki İtaliyanın "Miu miu" brendinin siması seçilib.**

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, sənətçi yeni kolleksiyanın tanıtımı üçün obyektiv qarşısına keçib.

Tilki geyindiyi bir geyim üçün 300 min lirə *(təxminən 34 min 860 manat)* qazanıb.